Mahallar mahalı
ZƏNGƏZUR


11

# Səs

№ 153 (6594) 26 avqust 2022-ci il. Qiymәti 60 qəpik

# İLHAM ƏLİYEV:

## ““Status-kvo”nu Azərbaycan özü dəyişdirdi”


3




# Ukrayna,

8

# yoxsa Rusiya tək qalıb?

## Əsrin böyük qadını və ya dünyaya humanizm örnəyi


4

## Laçın, Zabux və Sus: daha bir önəmli informasiya!


14

## Kiçik yaşlı uşaqların imtahan verməsi düzgündürmü?


7



## Məktəbli formaları: Kim tikir, harada və neçəyə satılır?

# Koreya Respublikası ilə Azərbaycan arasında siyasi və iqtisadi sahələrdə yaxşı təmaslar mövcuddur

## *Prezident İlham Əliyev Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsini qəbul edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Busan şəhərinin ”Ekspo 2030” Ümumdünya Sərgisinə ev sahibliyinə namizədliyini dəstək üzrə Xüsusi Komitənin sədri So Byoq Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Koreya Milli Assambleyasının üzvləri daxildir.**

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə yaxşı təmasların mövcud olduğunu bildirərək, Koreya Parlamenti sədrinin Azərbaycana səfərini məmnunluqla xatırladı və So Byoq Sunun səfərinin də əməkdaşlığın möhkəmləndirilməsi işinə verdiyi töhfəni qeyd etdi.

Prezident İlham Əliyev Koreya şirkətlərinin uzun illər Azərbaycanda çox uğurla fəaliyyət göstərdiklərini, bir neçə önəmli sənaye layihəsini icra etdiklərini və inşaat sektorunda da çox fəal olduqlarını, Bakının bir neçə ”göydələn”inin memarlığının da Koreya şirkətləri tərəfindən təqdim edildiyini dedi.

Dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrin daha da fəallaşmasının zəruriliyini bildirdi, parlamentlərlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafında rolunu vurğuladı.

Prezident İlham Əliyev 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda dağıntılar, vandallıq aktları törətdiklərini, şəhərlərimizi və kəndlərimizi tamamilə məhv etdiklərini bildirdi, hazırda həmin ərazilərdə Azərbaycanın genişmiqyaslı bərpa və yenidənqurma layihələrini həyata keçirdiyini dedi, Koreya şirkətlərinin müasir texnologiyalar vasitəsilə bu işlərə töhfə verə biləcəyini qeyd etdi. So Byoq Sun Koreya Respublikasının Prezidenti Yun Sok Yolun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Koreya Prezidenti Azərbaycana böyük marağının olduğunu vurğulayıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi. Bundan əvvəl 2009-cu ildə ölkəmizə səfər etdiyini bildirən So Byoq Sun paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat hissi doğurduğunu dedi, Azərbaycanın qazandığı nailiyyətlərlə bağlı dövlətimizin başçısını təbrik etdi.

So Byoq Sun Prezident İlham Əliyevin ölkənin inkişafı naminə göstərdiyi böyük səyləri Koreyanın keçmiş prezidenti Park Çunq Hinin fəaliyyəti ilə müqayisə etdi. O dedi ki, Park Çunq Hi məhz xalqın gücünə güvənərək Koreyanı çox inkişaf etmiş ölkəyə çevirib. Sonra So Byoq Sun Koreya Prezidentinin məktubunu dövlətimizin başçısına təqdim etdi.

---

# Azərbaycan dünya birliyi üçün önəmli tərəfdaşdır!

## Azərbaycan Prezidenti İlham Əliyev bir sıra ölkələrin Azərbaycana yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adis Alagiçin etimadnaməsini qəbul edib.**

Adis Alagiç etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. İkitərəfli əlaqələrə toxunan dövlətimizin başçısı Bosniya və Herseqovinanın rəhbərləri, o cümlədən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçlə görüşlərini məmnunluqla xatırladı və ona salamlarını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bu görüşlərdə çox səmimi və səmərəli müzakirələrin aparıldığını dedi.

Dövlətimizin başçısı Ermənistanın işğalı zamanı və Qarabağın azad edildiyi dövrdə Bosniya və Herseqovinanın Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdi və bunu ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev, eyni zamanda, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatında da göstərilən qarşılıqlı dəstəyin önəmini qeyd etdi.



Səfir ilk növbədə Bosniya və Herseqovina rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovina rəhbərliyinə çatdırmağı xahiş etdi.

Azərbaycana səfir təyin olunmasından qürur duyduğunu qeyd edən Adis Alagiç fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcini dedi.

Səfir vurğuladı ki, ölkəsi Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü müdafiə etməsini və Qarabağın uğurla bərpa olunmasını dəstəkləyir. O, ötən il Ağdama, yaxın günlərdə isə Şuşaya planlaşdırılan səfərindən məmnunluq hissi duyduğunu bildirdi. Adis Alagiç ölkələrimiz arasında çox güclü siyasi əlaqələrin ümumilikdə ikitərəfli münasibətlərimizə olduqca müsbət təsir etdiyini dedi. Diplomat ölkəsinin ikitərəfli və çoxtərəfli səviyyədə əlaqələrimizi daha da möhkəmləndirilməsində maraqlı olduğunu qeyd etdi.

Prezident İlham Əliyev dünən həmçinin Dominikan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Elvis Antonio Alam Loranın etimadnaməsini qəbul edib. Elvis Antonio Alam Lora etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.



Dövlətimizin başçısı ikitərəfli əlaqələrə toxunaraq, İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı siyasi hücumlar fonunda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Dominikan Respublikasının ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək hüququnun BMT Təhlükəsizlik Şurasının bəzi üzv dövlətləri tərəfindən pozmaq cəhdinin qarşısı Dominikan Respublikası və Təhlükəsizlik Şurasına üzv olan bir sıra dövlətlərin qəti mövqeyi sayəsində alınıb. Dövlətimizin başçısı, eyni zamanda, Dominikanın Qoşulmama Hərəkatında da Azərbaycanın Qarabağla bağlı haqlı mövqeyini dəstəkləyən bir ölkə olduğunu məmnunluqla vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin uzadılması, COVID-19-la, həmçinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər təşkilatının yaradılması ilə bağlı təşəbbüslərinin Dominikan tərəfindən dəstəklənməsini yüksək qiymətləndirib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu dedi, eyni zamanda, ticari və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsi yollarının da müəyyənləşdirilməsinin zəruriliyini bildirib.

Səfir, ilk növbədə, Dominikan Respublikasının Prezidenti Luis Abinaderin salamlarını dövlətimizin başçısına çatdırıb. Səfir qeyd edib ki, Azərbaycan kimi çox gözəl ölkəyə səfərindən və Dominikanın Azərbaycana ilk səfiri təyin olunmasından məmnunluq duyur. Elvis Antonio Alam Lora ölkəmizlə ticarət, turizm sahələrində və digər sahələrdə dinamik əlaqələrin qurulacağına ümidvar olduğunu dilə gətirib.

Prezident İlham Əliyev dünən Tailand Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun etimadnaməsini qəbul edib. Səfir Apirat Suqondhabhirom etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev Azərbaycan-Tailand ikitərəfli münasibətlərinin çox yaxşı səviyyədə olduğunu qeyd edərək müxtəlif sahələrdə, xüsusən də Tailandda çox inkişaf edən turizm istiqamətində daha fəal şəkildə əməkdaşlığın həyata keçirilməsinin zəruriliyini bildirdi, texnologiya sahəsində əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayıb. Azərbaycanda az sayda Tailand şirkətinin fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı ölkələrimizin mövcud potensialı nəzərə alınaraq iqtisadi sahədə əlaqələrin genişlənəcəyinə ümidvar olduğunu deyib.

Azərbaycana gəlişindən məmnunluğunu ifadə edən Apirat Suqondhabhirom paytaxtımızın gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını söyləyib. Səfir də öz növbəsində Azərbaycan ilə Tailandın mövcud potensialını qeyd edərək, müxtəlif istiqamətlərdə, o cümlədən turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlarımız arasında əlaqələrin qurulması istiqamətində səylərini əsirgəməcəyini bildirib.

Söhbət zamanı qida məhsullarının emalı sahəsində əməkdaşlıq məsələləri də müzakirə olunub.

# İLHAM ƏLİYEV:

## ““Status-kvo”nu Azərbaycan özü dəyişdirdi”



Bəli, cəmi 40 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Cənubi Qafqaz regionunda yeni reallıq bərqərar olsun. Bu 40 gün müddətində terrorçu Ermənistan Respublikasının "status-kvo"su artıq Azərbaycan ordusunun zəfərləri sayəsində ləğv edilmişdir. Artıq yeni tarixi mərhələnin status-kvosunu Azərbaycan müəyyən edəcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də bildirdi ki: "Biz "status-kvo" ilə əlaqədar uzun illər çox böyük səy göstərdik ki, həmsədrlərdən bununla bağlı bir açıqlama gəlsin. Nəhayət, təqribən 7-8 il bundan əvvəl Amerika, Rusiya və Fransa prezidentləri səviyyəsində bir neçə dəfə belə bir açıqlama verildi - "status-kvo" qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu alqışladıq. Mən də bir neçə dəfə bununla bağlı açıqlama verdim ki, bu, çox müsbət bir yanaşmadır. Yəni, bu, nə deməkdir, o deməkdir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan çıxmalıdır. "Status-kvo"nun dəyişdirilməsini Ermənistan etməlidir. Çünki biz Ermənistan torpaqlarını işğal etməmişik. Biz "status-kvo"nu necə dəyişdirə bilərik? Bu Ermənistan tərəfinə, bir mesaj, bir siqnal idi". Bunu Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.

"Ancaq təəssüf ki, bu açıqlama və açıqlamalar, - bir neçə dəfə belə açıqlamalar verildi, - havada qaldı. Ondan sonra biz nə eşitməyə başladıq? Son dönəmdə artıq həmin həmsədrlər bu ifadədən geriyə addım atdılar. İndi nə deyirlər? İndi də deyirlər ki, "status-kvo" dayanıqlı deyil. Amma bu, böyük bir fərqdir. "Status-kvo" dəyişməlidir, yəni ki, Ermənistan, sən torpaqlardan çıxmalısan. "Status-kvo" dayanıqlı deyil, yəni sabit deyil o deməkdir ki, sadəcə olaraq, onlar bunu fakt kimi göstərirlər. Ona görə belə olan halda, "status-kvo"nu Azərbaycan özü dəyişdirdi, döyüş meydanında dəyişdirdi. Artıq "status-kvo" yoxdur. Artıq Ağdərə, Füzuli, Cəbrayıl, Hadrut rayonlarının yaşayış məntəqələri və kəndlər azad edildi. Hansı "status-kvo"dan söhbət gedə bilər? Söhbət gedə bilməz. Təmas xətti? Təmas xətti yoxdur". Prezident İlham Əliyev onu da vurğulayıb ki, 30 ildir qururdular bu təmas xəttini: "Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim, heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq!".

Bəli.... AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "STATUS-KVO"SUZ REAL QARABAĞI QAYTARIR.

Bəli, 44 günün hər günündə Ali Baş Komandanımız müxtəlif əsrlərdə tarixi torpaqlarını itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, gücünü, qürurunu özünə qaytarır, ədalətli mövqedə olmağımızı, beynəlxalq hüquqa hörmət etdiyimizi və heç vaxt torpaqlarımızın işğalda qalması ilə razılaşmadığımızı dünya ictimaiyyəti qarşısında açıq şəkildə və qətiyyətlə bəyan edir. Bir daha sübut etdi ki, bu gün Azərbaycanın apardığı haqq işində heç kim müstəqil dövlətimizi və xalqımızı döndərə bilməz. Çünki Azərbaycanın apardığı mübarizə haqq işidir, ədalətlidir, beynəlxalq hüququn ali prinsiplərinə tamamilə uyğundur. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə cari ilin altı ayının yekunları ilə bağlı keçirilən müşavirədə də son vaxtlar Ermənistan rəhbərliyinin yenə də hansısa status haqqında danışmağa başladığını deyib: "Halbuki, müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim - Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Ona görə status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq". Bəli, bu Prezident, Ali Baş Komandan İlham Əliyevin son 19 ildə həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin qanunauyğun məntiqi nəticəsi, Güclü Azərbaycan Ordusunun zəfər yürüşlərinin və rəşadətli əsgərlərimizin əsl qəhrəmanlığının real nəticəsidir. Və Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində Ermənistanın danışıqların formatını dəyişdirmək kimi iddialarının üzərindən birdəfəlik xətt çəkildi. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq. "Qarabağ münaqişəsi həll olunub, Qarabağ mövzusu bağlanıb. Qarabağ Azərbaycandır!",-deyən dövlət bavşçısı bildirib ki, "Ermənistan-Azərbaycan qoşunlarının təmas xətti, dəyişilməyən "status-kvo" artıq yoxdur. Hərbi-siyasi şərtləri indi Azərbaycan diqtə edir. Azərbaycan Prezidenti hər görüşündə, müsahibələrində dönə-dönə bildirir ki, biz sülh istəyirik, müharibə istəmirik, heç vaxt da istəməmişik: "Nəyi etmişiksə, Azərbaycan ərazisində etmişik, özü də elə etmişik ki, hər kəs bizim hərbi əməliyyatımıza həsəd apara bilər. Ancaq bu meyili görməmək də mümkün deyil. Ona görə biz bunu görürük, təsbit edirik, xəbərdarlıq edirik. Hərə də bizim xəbərdarlığımızdan, necə deyərlər, öz payını alsın. Bu məsələ ilə bağlı hələlik bu qədər. Çox da dərinə getmək istəmirəm. Yenə də deyirəm, biz xarici işlər nazirlərinin sabahkı görüşünü gözləyirik, görüşün nəticələrini gözləyirik. Ondan sonra hansı addımlar atılacaq, biz onu müəyyən edəcəyik!".

Göründüyü kimi, cəmi 40 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Cənubi Qafqaz regionunda yeni reallıq bərqərar olsun. Bu 40 gün müddətində terrorçu Ermənistan Respublikasının "status-kvo"su artıq Azərbaycan ordusunun zəfərləri sayəsində ləğv edildi. Artıq yeni tarixi mərhələnin "status-kvo"sunu Azərbaycan müəyyən edəcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də bildirdi ki: ""Status-kvo" deyilən məsələ yoxdur. Qurtardı getdi. "Status-kvo" belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim "status-kvo"nu. Bax, orda, döyüş meydanında. "Status-kvo" yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim, heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq!".

Bəli, budur, Ali Baş Komandanımızın ədalətli siyasətinin təntənəsi! Budur, şanlı ordumuzun gücü, budur mübariz igid əsgərlərimizin rəşadəti!

**RƏFİQƏ HÜSEYNOVA**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Qax rayonunun Qaxbaş kəndi ərazisində avtomobil yollarının yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. SİA xəbər verir ki, Sərəncama əsasən, Qax rayonunun Qaxbaş kəndi ərazisində avtomobil yollarının yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 687,0 (altı yüz səksən yeddi) min manat ayrılıb.

***

Prezident İlham Əliyev F.R.Ağamalının 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fəzail Rəhim oğlu Ağamalı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

## "Minsk Qrupunun "reanimasiya"sı cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər"




Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə Filip Rikerin təyin olunmasına dair mətbuat bəyanatında bölgədəki postmünaqişə reallığından uzaq yanaşmanın sərgilənməsi təəccüb doğurur. AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva yerli KİV-lərin ABŞ-ın Dövlət katibi Antoni Blinkenin avqustun 24-də mətbuat bəyanatının şərh edilməsinə dair sorğusuna cavab olaraq bildirib. L.Abdullayeva deyib: "Minsk Qrupu ilə bağlı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəfələrlə və aydın şəkildə ifadə olunub.

Faktiki olaraq fəaliyyət göstərməyən Minsk Qrupunun "reanimasiya" edilməsi cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər.

Qarabağ münaqişəsi həll olunub və Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq ictimaiyyət, o cümlədən tərəfdaşlarımız anlamalıdır ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə danışıqların Qarabağ məsələsi ilə əlaqələndirilməsi heç də normallaşmaya xidmət etmir".

# Əsrin böyük qadını
# və ya dünyaya humanizm örnəyi

**Mehriban xanımın başçılıq etdiyi Heydər Əliyev Fondu Azərbaycanda və dünyada həyata keçirdiyi işlərlə nüfuzlu beynəlxalq humanitar təşkilata çevrilib**



**Birinci xanımın yaratdığı Azərbaycan Mədəniyyət Fondu bu sahədə fəaliyyəti həyata keçirmək üçün festivallar, sərgilər, konsertlər, mədəniyyət sahəsi ilə əlaqədar digər tədbirlər təşkil edir. Təkcə elə Azərbaycan musiqi folklorunun ənənəvi klassik forması olan muğamı təbliğ etmək məqsədilə Bakıda Muğam Mərkəzi yaratmaq barədə Prezident İlham Əliyevin dəstəklədiyi təşəbbüsün müəllifinin ölkəmizin birinci xanımı olduğunu qeyd etmək kifayətdir.**

Bundan başqa, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsil, səhiyyə və idman sahəsində geniş və çoxşaxəli iş aparılır. Onun rəhbərlik etdiyi Fond ölkədə çoxsaylı humanitar və sosial layihələr həyata keçirir. Yüzlərlə məktəb, xəstəxana və sair obyektlər tikilir.

Heydər Əliyev Fondunun prezidenti uşaqlara, onların problemlərinə xüsusi diqqət yetirir. Fondun xeyriyyə proqramı Azərbaycanda uşaq evlərinin yenidən qurulmasını və modernləşdirilməsini, məktəblər açılmasını, diabetdən və digər ağır xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə olunmasını əhatə edir. Qocalar evlərinə də ən müasir tibbi səviyyədə kömək göstərilir.

## Heydər Əliyev Fondunun əsas prioritetləri

Mehriban xamının başçılıq etdiyi Fond dünya mədəniyyəti nümunələrinin Azərbaycanda nümayiş etdirilməsi və fərqli mədəniyyətə mənsub insanlar arasında ünsiyyətin yaradılması istiqamətində mühüm işlər görür.

Qarşıya qoyduğu bütün layihələri uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğbət qazanıb. Fondun vətəndaşların hər bir müraciətinə həssas münasibəti, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində əzmkar fəaliyyəti, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verməsi bu qurumun ən ali ideallara xidmət etdiyini təsdiqləyir.

Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir və görülən bütün işlər Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir. Qurumun fəaliyyətinin prioritet istiqamətləri xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaqdır.

Xalqın və ya millətin sosial-siyasi vahid kimi formalaşmasında, dünya xalqları sırasına çıxmasında mühüm rol oynayan amillərdən biri də mədəniyyətdir. Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyətlə bağlı dediyi bir fikri xatırlamaq burada yerinə düşəcək: "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcək. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir".

## Milli-mənəvi dəyərimiz muğamın dünyada təbliği

Mədəniyyətə qayğı tədbirləri sırasında Azərbaycanda muğamın inkişafına göstərdiyi diqqət Heydər Əliyev Fondunun milli-mənəvi irsə necə böyük həssaslıqla yanaşdığını göstərir. Hələ 2005-ci ildə Azərbaycan musiqisinin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı ciddi addımlar atılıb, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustaları dəvət olunmaqla "dəyirmi masa" keçirilib və Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınıb.

Muğam ustaları ilə mütəmadi görüşlərdən, məsləhətləşmələrdən sonra Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edilib, Heydər Əliyev Fondunda onun təqdimatı keçirilib. Mərkəzin inşası üçün münasib yer seçilib, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə binanın təməli qoyulub. Tikinti işləri başa çatdıqdan sonra Beynəlxalq Muğam Mərkəzinin təntənəli açılışı olub. Azərbaycan muğam sənətinin inkişafı və qorunması istiqamətində atılan növbəti addım "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə buraxılması və "Gülüstan" sarayında onun təqdimat mərasiminin keçirilməsidir.

Heydər Əliyev Fondunun keçirdiyi "Muğam dünyası" adlı Beynəlxalq Festivalda isə muğam biliciləri Azərbaycana toplaşaraq incəsənətin qədim və özünəməxsus bir növü barədə fikir mübadiləsi aparıb, muğamın qorunub saxlanması və inkişaf etdirilməsi yollarını nəzərdən keçiriblər. Azərbaycanda bu sahədə görülmüş işlər muğama marağı xeyli artırıb, muğamın sirlərinə yiyələnmək istəyənlərin sayı qat-qat çoxalıb.

Bu, adi bir həvəs deyil, çünki muğam Azərbaycan xalqının gen yaddaşından süzülüb gələn, minillərin yaddaşını daşıyan ilahi musiqidir. Milli sərvətimiz, mənəvi dəyərlərimizin daşıyıcısı və etnosumuzun ən mükəmməl salnaməsi olan muğamın təbliği sahəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın başladığı işlərin bəhrəsi olaraq bu tədbir mədəniyyətlərarası dialoqa çevrildi.

Beynəlxalq Elmi Simpoziumda və Beynəlxalq Muğam müsabiqəsində İran, Suriya, İraq, Mərakeş, Özbəkistan, Tacikistan, Qazaxıstan, Misir, Türkiyə, Almaniya və digər ölkələrin təmsilçilərinin, həmçinin, Beynəlxalq Musiqi Şurasının muğam bölməsində bu janrın təhlili, təbliği ilə məşğul olan məşhur alimlərin bir araya gəldiyi Bakı, eyni zamanda, muğam sənətinin tarixində yeni bir mərhələnin başlanğıcının yazıldığı məkana çevrildi. Bəşəri mədəniyyət proqramı bütün dünyanın ən məşhur alimləri tərəfindən bəyənildi və təsdiq edildi.

Prezident İlham Əliyev "Muğam dünyası" Beynəlxalq Festivalının açılış mərasimində dediyi "Muğam Azərbaycanın milli sərvətidir"- fikri xalqımızın öz milli-mədəni dəyərlərinə verilən ən yüksək qiymət idi.

Mehriban xanım Əliyevanın muğam barədə fikirləri isə Prezidentin sözlərinin daha geniş ifadəsidir: "Muğam hər bir azərbaycanlının həyatına az qala doğulduğu andan daxil olur. Bu heyrətamiz musiqi bütün hallarda bizim daxili ovqatımıza uyğun gəlir.

O, həmişə yerinə düşür- kədərli və qüssəli anlarımızda da, sevinc və sevgi duyğuları aşıb-daşanda da. Bəli, muğam bizi həyatımızın başlanğıcından sonuna qədər daim müşayiət edir. Muğam fenomeni də məhz ondan ibarətdir ki, o, əsrlər boyu insanı müşayiət edib, ona ruhi saflıq və ucalıq bəxş edərək, ən qədim dövrlərdən bu günə və gələcəyə körpü olub. Həqiqətən də, ölkəmizi muğamsız, muğamı isə Azərbaycansız təsəvvür etmək çətindir".

Fondun səyi nəticəsində son illərdə İngiltərə, Fransa, Almaniya, Yaponiya, ABŞ və digər ölkələrdə muğama maraq xeyli artıb. Bu sahədə birinci xanımın xidmətlərindən ən böyüyü isə, 2003-cü ildə muğam YUNESKO-nun bəşəriyyətin şifahi və qeyri-maddi irsi inciləri siyahısına daxil edilməsi olub.

Ardı Səh. 5

# Əsrin böyük qadını
## və ya dünyaya humanizm örnəyi









Əvvəli Səh. 4

### Musiqi irsinin yaşadılması və milli incəsənətin inkişafı

Heydər Əliyev Fondu klassik musiqi mədəniyyətimizə ehtiramla yanaşır. Paytaxtda dahi bəstəkar Üzeyir Hacıbəyovun, Bülbülün təntənəli yubiley tədbirləri Fondun dəstəyi ilə gerçəkləşib. Dünya şöhrətli D.Şostakoviçin yubiley gecəsi, artıq ənənəyə çevrilən beynəlxalq Rostropoviç musiqi festivalları Heydər Əliyev Fondunun adı ilə bağlıdır. Bu festivallar çərçivəsində Azərbaycan, Amerika, İtaliya, Rusiya və Fransanın tanınmış musiqiçiləri, məşhur dirijorları çıxış edir.

Heydər Əliyev Fondu, həmçinin, Azərbaycanın mədəniyyət tarixində iz buraxacaq digər layihələri də həyata keçirir. Reallaşdırılan işlərin nəticəsi olaraq Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılır. Bu baxımdan Azərbaycan paytaxtında Müasir İncəsənət Muzeyinin açılışını yüksək qiymətləndirmək olar.

Muzeydə Azərbaycanın adlısanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işi toplanıb. Buraya gələnlər Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltəraşların işləri ilə də tanış olurlar. Qərbi Avropa incəsənəti salonunda isə ümummilli lider Heydər Əliyevə, habelə, Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Səttar Bəhlulzadə adına sərgi salonunda uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların ”Mən Azərbaycanı sevirəm” adlı rəsm sərgisinin açılması da mədəniyyət sahəsində xüsusi istedada malik insanların üzə çıxarılması işində böyük irəliləyişdir.

Dənizkənarı Milli Parkın ərazisində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının təməlinin qoyulması isə möhtəşəm tarixi hadisə hesab olunmalıdır.

Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə inşa olunmuş bina bükülmüş xalçanı xatırladır. Ümumi sahəsi 18 min 446 kvadratmetr olan 3 mərtəbəli binanın 1-ci mərtəbəsində sərgi salonu, kitabxana, elmi xalçaçılıq, toxuma və tikmə mərkəzi, suvenir və kitab köşkü, 2-ci mərtəbədə danışıqlar və audiovizual təqdimatlar otağı, 3-cü mərtəbədə böyük tərtibat imkanlarına malik sərgi zonası var.

Binanın altında arxiv, anbar, laboratoriya, bərpa və konservləşdirmə şöbələri yerləşir. Açıq havada heykəllərin və xalçaların nümayişi üçün sahə də nəzərdə tutulub. Muzeyin foyesində cəvahirat və bahalı bəzək əşyalarının sərgisi üçün seyf tipli otaqlar mövcuddur.

Tarixi irsin qorunmasında əsas işlərdən biri də, paytaxtın yaxınlığında salınan Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksidir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yeni layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edəcək.

Bir sözlə, digər sahələrdə olduğu kimi, millimədəni və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, onların təbliğ olunmasında da Heydər Əliyev Fondunun gördüyü işlər dövlətimiz, xalqımız üçün böyük töhfə hesab olunur.

Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir və görülən bütün işlər Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

### ”Təhsil millətin gələcəyidir”-

### Fondun fəaliyyətində ən mühüm prinsip

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən və cəmiyyət tərəfindən böyük rəğbətlə dəstəklənən ”Yeniləşən Azərbaycana yeni məktəb” proqramı təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə- tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.

”Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində 300-dən artıq məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilib. Proqram çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub. Beləliklə, ölkənin ən müxtəlif bölgələrində minlərlə şagird yeni tədris illərini müasir tələblərə cavab verən yeni məktəblərdə qarşılayıb.

Fondun həyata keçirdiyi ”Təhsilə dəstək” layihəsi çərçivəsində hər yeni dərs ilinin əvvəlində məktəblilərə çanta və digər məktəb ləvazimatlarının paylanması Heydər Əliyev Fondunun ənənəsidir. 2004-cü ildən başlayaraq Fond hər il qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərini, eləcə də, Gürcüstanda yaşayan soydaşlarımıza yeni dərs ili ərəfəsində bağışladığı çanta və dərs ləvazimatı ilə sevindirir. Bir sıra xarici ölkələrdə- Rusiyada, Hollandiyada, Türkiyədə, Gürcüstanda, Rumıniyada yaşayan azərbaycanlı məktəblilər də belə hədiyyələr alıblar.

Heydər Əliyev Fondunun təhsilə qayğısı təkcə respublikamızla məhdudlaşmır. Gürcüstanda yaşayan azərbaycanlıların təhsillə bağlı



problemlərinin aradan qaldırılmasına, bu ölkədəki Azərbaycan məktəblərinin dərsliklə təminatına da böyük yardım göstərilib, ”YP Morgan” təşkilatının Fonda hədiyyə etdiyi, xaricdə nəşr olunmuş müxtəlif adda kitablar ali məktəblərə təqdim olunub.

Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğı xüsusilə qeyd olunmalıdır.

2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi də Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb, məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında isə Fondun ”Təhsilə dəstək” layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək, yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunub.

Rusiyanın ”Puşkin kitabxanası” Fondu ilə qurulan əməkdaşlıq da ölkəmizdə elm, təhsil və mədəniyyətin inkişafına yönəldilən hadisədir. ”Puşkin kitabxanası” Fondu ilə yaranmış əməkdaşlıq çərçivəsində Rusiyada son illər nəşr olunmuş və müxtəlif elm sahələrinə aid 5 minə qədər kitab respublikamızın ali məktəblərinə təqdim edilib, ”World Vision” (”Dünyaya baxış”) təşkilatı tərəfindən quruma təqdim edilən və məxsusi olaraq uşaq müəssisələri üçün nəzərdə tutulmuş 1000-dək nəfis tərtibatlı kitab uşaq evlərinə və internat məktəblərə paylanıb.

### Sosial inkişaf siyasəti və humanizmin ən böyük nümunəsi

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin əvvəlində Bakıda və əksər rayonlarda uşaq evləri və internat məktəblərində olduqdan sonra ”Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı”nın hazırlanıb həyata keçirilməsini məqsədəuyğun hesab etdi. Ölkədəki uşaq evləri və internat məktəblərində mövcud problemlərin həllinə yönələn bu proqram Fondun başlıca fəaliyyət istiqamətlərindən birinə çevrildi.

Proqramın ilkin mərhələsində aparılan monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn bir neçə istiqamət-texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilib. Fond belə müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğunu nəzərə aldığından, ilk növbədə, texniki dəstək istiqaməti üzrə işlərə başlandı.

Bu kateqoriyadan olan 50-dək uşaq müəssisəsində yenidənqurma və tikintitəmir işləri aparıldı. Bu zaman onların zəruri avadanlıqla təmin edilməsi, yeni ədəbiyyatla zəngin kitabxanaların yaradılması, informasiya texnologiyalarının tətbiqi, sinif otaqlarının interaktiv təhsil üçün uyğunlaşdırılması da diqqət mərkəzində idi.

Heydər Əliyev Fondu kimsəsiz, valideyn himayəsindən məhrum, fiziki imkanları məhdud, habelə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın-köçkün həyatı yaşayan uşaqlara qayğı göstərmək baxımından bütün digər qurumlar üçün layiqli örnəkdir.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslər də Fondun diqqətindən kənarda deyil. 9 dekabr 2005-ci il tarixdə Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında kor və görmə qabiliyyəti zəif olan insanlar üçün İKT-yə çıxışın təmin edilməsinə dair layihə imzalanıb. Bu layihə əhalinin təcrid olunmuş qrupunun cəmiyyətin həyatında fəal iştirakını təmin etməklə, kor və görmə qabiliyyəti zəif olan insanların informasiya əldə etməsi üçün əlavə potensialı təmin edərək onlar üçün məşğulluq imkanlarını yaradıb.

”Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi” layihəsi kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün respublika internat məktəbində model İKT sinfinin, audiostudiyanın, Brayl əlifbalı zəngin kitabxananın yaradılmasına kömək edib. Fond bu istiqamətdə fəaliyyətini davam etdirərək Gəncə şəhərində fiziki qüsurlu insanlar üçün Regional Mərkəzin yaradılmasına dəstək verib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə müxtəlif sahələrdə irimiqyaslı layihələrin reallaşdırılması ilə Fond xalqın etibarını və etimadını qazanıb. Prezident İlham Əliyev Fondla bağlı deyib: ”Bu Fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu Fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən ”Xoş niyyət” deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük”.

Fondun prezidenti Mehriban xanım Əliyeva isə deyir ki, Heydər Əliyevin adını daşıyan Fond Azərbaycanın bu günü və gələcəyi naminə bundan da artıq işlərə hazır və qadirdir.

**Elçin**

# “Azərbaycanın-Qazaxıstan əməkdaşlığı qarşılıqlı etimada əsaslanır”

“Türk dünyasının birliyi, həmrəyliyi Azərbaycan dövlətinin xarici siyasətində prioritet istiqamətlərdən biridir. Avqustun 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə rəsmi səfəri çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər atılan addımlar türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinə verilən töhfələr və qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflər barədə aydın təsəvvür yaradır. Səfər zamanı diqqəti çəkən mühüm hadisələrdən biri kimi Qazaxıstan Prezidentinin Azərbaycan dövlət başçısı İlham Əliyevə Qazaxıstanın ”Altın kıran” - ”Qızıl qartal” ali ordenini təqdim etməsi yaxın günlərdə diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcək iki qardaş ölkənin bu illər ərzində əməkdaşlığının inkişafı istiqamətində göstərilən səylərin və qazanılan uğurların təqdimatıdır. Bu baxımdan ki, Qazaxıstan Prezidenti həmin mərasimdə bir daha bildirdi ki, dövlət başçısı İlham Əliyevi ölkəsində görkəmli dövlət xadimi, bütün dünyada Azərbaycanı tarixi Zəfərə, Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış şəxsiyyət kimi tanıyır, ehtiram bəsləyir, hörmət edirlər. Prezident İlham Əliyev dövlətlərimiz arasında çoxtərəfli, çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə verir. Kasım-Jomart Tokayev bütün qazax xalqı adından ehtiram əlaməti olaraq cənab İlham Əliyevə ”Altın kıran” ordenini təqdim etdi. Bu ali mükafatı Azərbaycan xalqına hörmət əlaməti kimi dəyərləndirən dövlət başçısı İlham Əliyev belə bir əminliyi ifadə etdi ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, xalqlarımızı ortaq tarix, ortaq köklər birləşdirir: ”İki dost, qardaş ölkə arasında əlaqələrin inkişafında ulu öndər Heydər Əliyevin və Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayevin böyük xidmətləri vardır. Ölkələrimizin qət etdikləri 30 illik əməkdaşlıq yolu qarşılıqlı etimada, səmimi münasibətə əsaslanır. Bu baxımdan ölkələr arasında əlaqələrin inkişafında etimad əsas faktordur. Səfər çərçivəsində iki dost ölkənin strateji tərəfdaşlığı ilə yanaşı, müttəfiqliyini də təsdiqləyən sənədin imzalanması perspektivlərə də aydınlıq gətirir.”



Belə ki, əlaqələrin inkişafında əhəmiyyətli rol oynayan qarşılıqlı səfərlərdə diqqəti çəkən əsas məqam prezidentlərin təkbətək, eyni zamanda, geniş tərkibdə keçirilən görüşlərində aktual məsələlər ətrafında aparılan müzakirələrlə yanaşı, imzalanan sənədlərdir ki, bunlar da qarşıda duran hədəflərə bələdçilik edir. Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə ”Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram”ı və ”Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi haqqında Bəyannamə”nin imzalanması ilə bərabər, 20-dən artıq sənəd müvafiq strukturlar tərəfindən imzalandı. Hər bir sənəd əlaqələrin inkişafında yeni istiqamət, ən əsası hüquqi bazadır. Sənədlərdən irəli gələn vəzifələrin uğurlu icrası fonunda münasibətlərin inkişaf coğrafiyası daha da genişlənir. Hazırda iki ölkə arasında iqtisadi və siyasi əlaqələr yüksələn xətlə inkişaf edir. Prezidentlər mətbuata bəyanatlarında diqqəti iyun ayında Bakıda keçirilən Azərbaycan, Qazaxıstan və Türkiyənin xarici işlər və nəqliyyat nazirlərinin görüşünə yönəldərək bildirdilər ki, bu, çoxtərəfli əməkdaşlığın yeni formatıdır və bu əlaqələrin böyük perspektivləri var. Birgə Bəyannamədə həm də Azərbaycanın Mərkəzi Asiyanın beş ölkəsi ilə çoxtərəfli əməkdaşlığının gələcəkdə mümkün inkişafı da əksini tapıb. Bir sözlə, xalqlarımızın tarixi, ənənələri, mədəniyyəti bütün sahələrdə daha sıx qarşılıqlı fəaliyyət göstərilməsini tələb edir. Birgə Bəyannamədə, həmçinin Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunun Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinin vacibliyi də qeyd edilib.”

YAP Xətai rayon təşkilatının sədri tarixi Zəfərimizin reallıqları fonunda yeni əməkdaşlıq formatlarının yaradılmasından, ikitərəfli və çoxtərəfli çərçivədə qurulan əlaqələrdə Azərbaycanın mövqeyinin möhkəmlənməsindən geniş bəhs edərək bildirib ki, Azərbaycan daim xarici siyasətində qarşılıqlı hörmət və maraq prinsiplərini öndə saxlaması, ən əsası heç bir dövlətin daxili işinə müdaxilə etməyərək belə müdaxiləleri özü üçün də yolverilməz qəbul etdiyindən hər zaman dəyişməz mövqeyi ilə dünyanın diqqətində olub: ”Bunu sübut etmək üçün tarixi Zəfərimizdən sonra türk dünyasının birliyinin, həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımların xronologiyasına diqqət yetirmək kifayətdir. Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı daim bu birliyin təcəssümü kimi diqqətə çatdırılır. Ötən il Qarabağın tacı Şuşa Azərbaycan-Türkiyə qardaşlığının müttəfiqlik səviyyəsinə yüksəldiyini təsdiqləyən Bəyannamənin imzalanmasına şahidlik etdi. Azərbaycan və Türkiyə dost, qardaş ölkələr olmaqla yanaşı, eyni zamanda, müttəfiqdirlər. Bu gün isə həmin sıraya Qazaxıstan da daxil oldu. Azərbaycan və Qazaxıstan hazırda eyni ab-havanı yaşayır. İmzalanan Bəyannamə iki ölkənin strateji tərəfdaşlığının müttəfiqliyə yüksəldiyinə bələdçilik edir.”

Vüqar Rəhimzadə onu da əlavə edib ki, tarixi Zəfərimizin mühüm reallıqlarından biri işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə dost, qardaş ölkələrin dəstəyidir: ”Səfər çərçivəsində Qazaxıstanın azad Qarabağımıza hədiyyəsinin təqdimatı xüsusilə diqqətçəkən oldu. Belə ki, Azərbaycan və Qazaxıstan prezidentləri Qazaxıstanın ”Bİ-Group” Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış oldular. Bu mühüm addım Qazaxıstanda keçmiş azərbaycanlı məcburi köçkünlərin öz doğma ocaqlarına Böyük Qayıdışı prosesinə nə dərəcədə səmimi münasibət bəsləndiyini, bu problemin Qazaxıstan üçün də nə dərəcədə aktual olduğunu bir daha təsdiqlədi. Bu təşəbbüsə görə Qazaxıstan Prezidentinə minnətdarlığını bildirən dövlət başçısı İlham Əliyev bunu dostluğun, qardaşlığın, həmrəyliyin təzahürü kimi dəyərləndirərək bu əminliyi də ifadə etdi ki, qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyacaq Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi həm də Qazaxıstan-Azərbaycan dostluğu mərkəzi olacaq.”

Ümumilikdə Qazaxıstan Prezidentinin ölkəmizə rəsmi səfərinin məhsuldar olduğunu xüsusi qeyd edən YAP Xətai rayon təşkilatının sədri bir daha vurğulayıb ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 ilini arxada qoyan Azərbaycanın və Qazaxıstanın qarşısında əlaqələrin daha da inkişafı üçün geniş imkanlar yaranıb: ”Bir tərəfdən ərazi bütövlümüzün bərpası ilə Qarabağ münaqişəsinin tarixə qovuşması, digər tərəfdən isə 2018-ci ildə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması əlaqələrimizdə yeni səhifələr açır. Azərbaycan ilə Qazaxıstan arasında 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram”ın imzalanması da bunun təsdiqidir.”

# Rusiya və Ermənistan arasındakı gərginliyin səbəbləri nədir?




“Rusiya və Ermənistan arasında gərginlik, müəyyən mənada Qarabağla bağlı üçtərəfli görüşlərə də təsiri ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib. Onun sözlərinə görə, Rusiya və Ermənistan arasında münasibətləri dəyərləndirərkən, hökumətlərarası deyil, dövlətlərarası münasibətlərə fikir verməliyik: ”Buna görə də bu, hökumətlərarası gərginlik kimi qiymətləndirilməlidir. Bu gün hakimiyyətdə olan Paşinyan komandası və Kreml administrasiyası arasında gərginlik olsa da, son nəticədə Rusiya Ermənistanı əldən vermək fikrində deyil. Ona görə də Ermənistanın yaratdığı provakasiyalara və təxribatçı əməllərə göz yumur”.

Politoloq Samir Hümbətov sözlərinə əlavə edərək qeyd edib ki, digər tərəfdən isə Qarabağ danışıqlarında Azərbaycanın kifayət qədər üstünlüyü formalaşıb: ”Laçın və ətraf kəndlərin geri qaytarılması müəyyən mənada Ermənistana psixoloji basqı kimi qiymətləndirilir. Rusiya istəməz ki, Azərbaycan tam şəkildə Qarabağı nəzarətə keçirsin. Çünki belə olduğu halda, Rusiyanın həm Azərbaycandan, həm də Ermənistandan əli üzülür. Çünki Ermənistan cəmiyyəti görsə ki, Azərbaycan tam şəkildə ərazi bütövlüyünü bərpa edib, Rusiyaya qarşı cəmiyyətdə aqressiya güclənəcək. Nəticədə düşünürəm ki, 10 noyabr üçtərəfli Bəyannamənin şərtlərinə uyğun olaraq Azərbaycanın tələbi olan bütün məsələlər həll ediləcək. Moskva görüşünün ciddi uğurlu nəticəsi olacağı gözlənilmir. Moskva görüşündə bir bəyannamənin şahidi ola bilərik. Ermənistan daha çox Qərblə əməkdaşlığa üstünlük verdiyi üçün daha çox Brüssel görüşünə ümid bəsləyir. Müşahidələr onu göstərir ki, Moskva görüşündə hər hansı ciddi məsələlər həll olunması gözlənilmir”.



*Qönçə Quliyeva*

# “Qazaxıstan prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrin möhkəmləndiyini göstərir”



“Azərbaycanla Qazaxıstanı ortaq köklər, tarixi köklər, ortaq mövqelər birləşdirir və iki dövlət daimi olaraq beynəlxalq təşkilatlarda bir-birlərinə dəstək verirlər”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədrinin sözlərinə görə, Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri də bir daha göstərdi ki, Azərbaycan-Qazaxıstan münasibətləri ildən-ilə genişlənir və əlaqələr möhkəmlənir.

”Tokayevin Azərbaycana səfəri bir daha sübut edir ki, Azərbaycanla Qazaxıstan arasında münasibətin yaxşılaşdırılması həm iqtisadi baxımdan, həm də insanların rifahının yüksəldilməsi, dostluq və qardaşlığın möhkəmləndirilməsi baxımından çox dəyərlidir. Qazaxıstan Prezidentinin Azərbaycan Prezidentini Qazaxıstanın Ali Ordeni ilə təltif etməsi, eləcə də işğaldan azad olunmuş Füzuli rayonunda xüsusi uşaq yaradıcılıq mərkəzinin tikintisinə başlanılması, bünövrəsinin qoyulması bir daha sübut etdi ki, iki qardaş ölkə bir-birinə dəstək verməkdə və bu dəstəyi genişləndirməkdədir. Azərbaycanın dövlət rəhbəri haqqında Qazaxıstanın Prezidentinin söylədiyi xoş sözlər, dəyərli fikirlər göstərdi ki, həqiqətən də Azərbaycan Prezidenti bu gün dünyada sülhün, əminamanlığın bərqərar olmasında, eləcə də ölkələrarası münasibətlərin yaxşılaşdırılmasında fəal, mübariz, həm də uzaqgörən siyasi xadimdir.

Bir çox sənədlərin imzalanması dövlətlərarası münasibətlərin sürətləndirilməsində və irəliyə doğru addımların atılmasında önəmlidir. İstər ticarət, istər mədəniyyət, istər iqtisadi əlaqələr, istərsə də digər sahələrdə imzalanmış sənədlər göstərir ki, bundan sonra da Azərbaycan-Qazaxıstan münasibətləri yüksələn xətt üzrə inkişaf edəcəkdir. Əlbəttə ki, cənab Prezidentin, eləcə də jurnalistlərə bəyanatında Qazaxıstan Prezidentinin söylədiyi fikirlər onu deməyə əsas verir ki, bu dövlətlər bir çox beynəlxalq tədbirlərdə, bir çox beynəlxalq tribunalarda bir-birlərinin mövqelərini və bir-birlərinin haqq, ədalət, demokratiya uğrunda apardıqları mübarizəni dəstəkləyirlər.”

*İnam Hacıyev*




# Kiçik yaşlı uşaqların imtahan verməsi düzgündürmü?

***Uşaqlarımız çılğın körpəlik dönəmindən sonra məktəb məsuliyyəti ilə üz-üzə qalır. Bir çox uşaq bu vəziyyətə asanlıqla uyğunlaşır və qısa müddətdə bu nizama alışır. Ancaq bəzi uşaqların uyğunlaşma prosesləri daha çətin olur və xüsusilə, uğursuzluq qorxusu səbəbiylə imtahan stressi ilə qarşılaşa bilirlər. Belə hallarda kömək əlini uzadıb bu problemin öhdəsindən gəlmək mütləq ailənin üzərinə düşür. Valideynlər olaraq, uşağınıza bu stressin öhdəsindən gəlib, onun yanında olmalısınız.***

Hər bir uşaq ilk növbədə başa düşülmək istəyir. Buna görə də, belə bir stresli vəziyyətə heç vaxt laqeyd yanaşmayın və uşağınıza onu başa düşdüyünüzü bildirin. Uşağınıza izah edin ki, bir az narahatlıq normaldır, lakin həddindən artıq çox olması onu yorar.

İmtahan yaxınlaşdıqca stress səviyyəsi artır. İmtahan dövründə övladınızın imtahanlara necə hazırlaşacağını planlaşdırın və bunu son dəqiqəyə buraxmayın. Xüsusilə də, azyaşlı uşaqlara qarşı bir qədər həssas yanaşmaq lazımdır.




İmtahanda zəif nəticə göstərən şagird özünə olan sevginin, hörmətin azalacağını düşünür. Bunun belə olmadığını övladınıza izah edin.

Uşağınız imtahandan istədiyiniz nəticəni almaya bilər. Bununla belə, onun bu imtahan üçün mübarizə apardığını görsəniz, yenə də onu qiymətləndirməlisiniz. Bu, uşağınızın növbəti imtahana həvəslə oxumasını təmin edəcək.

Dünyanın bir çox inkişaf etmiş ölkələrində azyaşlı uşaqlar demək olar ki, imtahanın nə olduğunu bilmir. Azərbaycanda isə əksinə. Bu gün hər hansı prestijli məktəb və ya liseyin 1-ci sinfinə övladını yollamaq istəyən valideynə deyilir ki, "Uşağınız bizim məktəbdə təhsil almaq üçün ilk növbədə imtahan, yaxud da müsahibə mərhələsindən keçməlidir". Üstəlik, bu imtahana daxil edilən sualların bir çoxu uşağın yaş qrupuna və psixologiyasına uyğun deyil. Bu da onların ciddi stress yaşamasına səbəb olur. Axı, məktəbə ilk qədəmlərini qoyacaq olan 5-6 yaşlı uşaq imtahanın nə olduğunu necə dərk etsin?!

SİA mövzu ilə bağlı Milli Məclisin Elm və Təhsil Komitəsinin deputatlarının, təhsil ekspertlərinin, məktəbəqədər övladı olan valideynlərin və ibtidai sinif müəllimlərinin fikirlərini öyrənərək araşdırma aparıb.



**Milli Məclisin Elm və təhsil komitəsinin deputatı Kamilə Əliyeva:** "Ümumiyyətlə, ümumtəhsil məktəblərində belə imtahan, yaxud müsabiqə yoxdur. Yəni, orta məktəblərə birinci sinfə qəbul onlayn şəklində aparılır. Belə ki, valideynlər övladlarını qeydiyyata salırlar. Məktəbi və müəllimi valideynlər seçir və beləliklə, uşaqlar birinci sinfə qəbul edilir.

Bununla yanaşı, bir sıra məktəb, lisey, gimnaziya və özəl məktəblər var ki, onlar müəyyən bir seçim aparırlar. Yəni, orada da onlayn şəklində qeydiyyat aparılır. Ondan sonra isə uşaqları test üsulu, yaxud müsabiqə ilə seçirlər. Amma qalan hallarda isə dövlət ümumtəhsil məktəblərində ancaq qeydiyyatdan keçdikdən sonra valideynlər seçimlərini özləri edirlər. Adi qaydada həmin məktəbdə övladları təhsillərini davam etdirir.

Zaman dəyişir, artıq 21-ci əsrdir. Uşaqlarımız çox inkişaf edib. Bu gün məktəbəqədər hazırlıq mərhələsi var. Artıq 1-ci sinfə gedən uşaqlar hərfləri, saymağı, elementar anlayışları məktəbdə deyil, məktəbə gəlməmişdən öncə öyrənirlər. Buna məktəbəqədər hazırlıq qrupları çox kömək edir. Belə ki, uşaqlar 1-ci sinfə gedəndə yazı yaza, şeir söyləyə və saya bilirlər.

Tamam başqa bir əsrdir və uşaqlar da həmin uşaqlar deyil. Çox inkişaf var. Bu da əlbəttə ki, sevindirici haldır".



**Laçın rayon 11 nömrəli məktəbin ibtidai sinif müəllimi Səadət Hacıyeva** mövzu ilə bağlı fikirlərini belə ifadə edib: "1-ci sinifdə təhsil alacaq şagirdlər üçün imtahan artıq yoxdur. Əvvəllər, yəni məktəbəqədər hazırlıq qrupları olmadığı zamanda imtahan olurdu. Belə ki, əvvəl 6 yaşı tamam olmamış uşaqlar məktəbə imtahansız qəbul edilmirdi. İndi isə Təhsil Nazirliyinin qərarı ilə məktəblərdə məktəbəqədər hazırlıq qrupları var. Bu qruplar vasitəsilə 1-ci sinfə gələcək olan uşaqlar məktəb mühitinə adaptasiya olur.

Bunun üçün qruplara elektron formada qeydiyyat götürülür. Məktəbəqədər hazırlıq qruplarına 5 yaşlı uşaqlar qəbul olunur. Həmin qrupları bitirmiş uşaqlar daha sonra avtomatik olaraq məktəbin 1-ci sinfinə qəbul edilir. Bu qruplara gələn uşaqlar tədris ili başladıqda, demək olar ki, bütün hərf və rəqəmlərlə tanış olurlar. Amma bəzən valideynlər bu məsələlərə biganə yanaşır. Belə ki, onlar uşaqlarını 5 yaşlı məktəbəqədər hazırlıq qruplarına yazdırmadan 1-ci sinfə göndərmək istəyirlər. Bu da uşaqların 1-ci sinifə qədəm qoyduqda məktəbəqədər qruplara gəlmiş uşaqlarla müqayisədə müəssisəyə adaptasiya olmasında çətinlik törədir və ləngimələr yaranır. Bunların səbəbi valideyn diqqətsizliyidir. Bu məsələyə biganə yanaşmaq olmaz.

Ölkəmizdə təhsil üçün geniş imkanlar yaradılıb və şagirdlər dövlətin verdiyi bu müsbət imkanlardan yararlanmalıdır. Bu gün Azərbaycanda olan təhsil ocaqlarının əksəriyyəti müasir dövrün tələblərinə uyğun olaraq təmir edilib və edilməkdə davam edir. Şagirdlərin təhsil alması üçün hər cür şərait yaradılıb. Tələbə və şagirdlərə dövlətin yüksək diqqət və qayğısı var. Bu da cənab Prezident İlham Əliyevin təhsilə böyük önəm verdiyindən xəbər verir".

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Birinci sinfə gedən uşaqlara heç



bir imtahan olunmur. Onlar sadəcə olaraq müvafiq məktəbi seçir və yaşadıqları əraziyə uyğun məktəbdə (təbii ki, yer varsa) təhsil alırlar. Yalnız rus bölməsinin şagirdləri üçün xüsusi müsahibə mərhələsi olur və o əsasda onların qəbulu həyata keçirilir. Müsahibədən keçənlər müvafiq məktəb seçimi aparırlar.

Qaldı ki birinci sinfə qəbula, məsələn, yaş kateqoriyası normativə uyğun deyilsə, yəni, 6 yaşı yoxdursa, bəli, onlar üçün imtahan olur və onların müvafiq bilikləri yoxlanılır ki, əgər mövcud tədris proqramına uyğunluq varsa, hər hansı bir biliklərə sahibdirlərsə həmin şəxslər üçün məktəbəqəbul mümkündür".

**Psixoloq Nərgiz Hüseynova:** "1-ci sinifdə təhsil alacaq uşaqlar üçün imtahan olarsa, bu, uşaqların psixi və fiziki inkişaf



dərəcələrini yoxlamaq üçün olmalıdır. Məsələn, uşağın diqqəti, qavrayışı və yaddaşı üçün belə imtahanlar edilməlidir.

Hər hansı bir imtahandan əvvəl uşaqlar və böyüklər həyəcan yaşayır. Bu, həm də uşağın hazırlıq dərəcəsindən asılıdır. Əgər uşaq əvvəldən imtahana hazırlıq keçirsə, bu, yaxşıdır. Çünki onun məktəbə adaptasiya olma müddəti var ki, hazırlıq dönəmi də buna çox kömək edir. Hazırlığa gedən uşaq məktəblə öndəcən tanış olur".

**6 yaşlı Mehri İsmaylovanın valideyni Rüfanə İsmayılova:** "İndi rus dilində iki kəlmə danışa bilməyən valideynlər istəyir ki, uşaqları rus bölməsində təhsil alsın. Bu, çox utancverici vəziyyətdir.

Qızımın 6 yaşı var və 1-ci sinifə gedəcək. Onun təhsilinin Azərbaycan bölməsində olmasına qərar vermişik. Ona görə ondan heç bir imtahan tələb olunmur. İmtahan daha çox rus bölməsində təhsil alacaq uşaqlara şamil edilir.




Şəhərdə müəyyən liseylər var ki, ora daxil olmaq üçün 5-6 yaşlı uşaqlar imtahan verməlidir. Normal məktəbdə və Azərbaycan bölməsində isə belə qayda ilə rastlaşmamışam".

***Ayşən Vəli***




# Ukrayna, yoxsa Rusiya tək qalıb?

**Rusiya Ukraynaya hücum edəndə müharibənin üç günə bitəcəyini deyənlər də var idi. Ancaq altı ay keçməsinə baxmayaraq hələ də müharibə dayanmayıb, əksinə dana amansız bir dövrünə qədəm qoyub. Sülhün ollacağı da gözlənilmir. Rusiya və Ukraynaya müharibəsi son altı ayda Ukraynaya ölüm, dağıntı və səfalət gətirdi. Fevralın 24-də Rusiyanın Ukraynaya hücumu İkinci Dünya müharibəsindən sonra Avropada ən irimiqyaslı müharibə kimi qeydə alınıb.**

Gözlənilməz baş verən bu müharibənin nəticələri qlobal miqyasda hiss olundu. Statistika göstərir ki, Rusiyanın hücumundan sonra 6,8 milyon ukraynalı öz ölkəsini tərk edib, ən azı 7,7 milyonu isə məcburi köçkün vəziyyətinə düşüb. Məlumata görə, ilk növbədə qonşu ölkələrə 3 milyon insan qaçıb. Polşadan sonra ən çox ukraynalı qaçqınların sığınması üçün kömək edən ölkələr 727 min nəfərlə Almaniya və 348 min nəfərlə Çexiyadır.

Bəs İkinci Dünya Müharibəsindən sonra Avropada ən böyük təhlükəsizlik krizinə səbəb olan bu müharibə Avropanın qalan hissəsini necə dəyişdi?

## Avstriya: Neytrallığa inam sarsıldı

Müharibə Avstriyanın onilliklər boyu neytrallığa olan inamını şübhə altına aldı və bu məsələ ictimai müzakirələrə səbəb olub. Belə ki, ölkə neytral və tərəfsiz qalmaq düşüncəsindən əl çəkdi.

1955-ci ildən başlayan neytrallıq siyasəti bu günə qədər davam etdirilir. Ona görə də hələ də NATO-nun üzvü deyil. Lakin Finlandiya və İsveç kimi Avstriya da bu variantı nəzərdən keçirməyə başlayıb. Əhalinin böyük əksəriyyəti neytrallığı dəstəkləməkdə davam etsə də, neytrallığın müsbət və mənfi tərəfləri ilə bağlı müzakirələr heç vaxt olmadığı qədər genişlənib. Bu neytral mövqeyi vurğulamaq üçün kansler Karl Nehammer ən son aprelin ortalarında, müharibə başlayandan sonra Rusiya Prezidenti Vladimir Putinlə üzbəüz danışıqlar üçün səfər edən ilk Avropa lideri oldu.




## Belçika: nüvə enerjisindən çıxışı gecikdirir

Belçika Ukrayna müharibəsinin enerji probleminə səbəb ola biləcəyindən ehtiyat edərək nüvə stansiyalarını bağlamağı təxirə salıb. Hazırda yeddi nüvə stansiyası olan ölkə 2025-ci ilə qədər nüvə enerjisindən asılılığından imtina etmək niyyətində idi. Lakin qazın qiymətinin artması və Rusiyanın Avropaya tədarükünü kəsmək riski bu sahədə siyasət dəyişikliyinə səbəb olub. Belçika nüvə enerjisindən mərhələli şəkildə dayandırılmasını 10 il 2035-ci ilə qədər təxirə salacağını açıqlayıb.

## Bolqarıstan: Müharibə Rusiya ilə münasibətləri korlayır

Ukraynadakı müharibə kommunist dövründə keçmiş Sovet müttəfiqləri olan Moskva ilə Sofiya arasında münasibətlərin sürətlə pisləşməsinə səbəb olub. Kiril Petkovun qərbyönlü koalisiya hökuməti nəinki Aİnin Rusiyaya qarşı sanksiyalarını dəstəkləyib, həm də Moskvanın idxal olunan Rusiya qazının pulunu rublla ödəmək tələbini rədd edib.

Bu, demək olar ki, tamamilə Rusiyadan idxal olunan enerjidən asılı olan "Qazprom"un ölkəyə qaz tədarükünü dayandırmasına səbəb olub. İyulda iki ölkə arasında Azərbaycandan qaz nəql edən yeni boru xətti açıb. Eyni zamanda, Sofiyada müvəqqəti hökumətin Rusiyanın qaz kranlarının yenidən açılması üçün Qazprom ilə danışıqlara başlaması ölkədə etirazlara səbəb olub. Əhalinin təxminən dörddə biri Vladimir Putinin Ukraynanı işğal etməsinə haqq qazandırıb.

## Çexiya: Ukraynalı qaçqınları qəbul edən Kiyevin mühüm müttəfiqi oldu

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, Çexiyada 413 mindən çox qaçqın qeydiyyata alınıb. Bu, ölkənin 10,7 milyonluq əhalisinin təxminən 4%-i deməkdir. Müqayisə üçün qeyd edək ki, Polşada qeydiyyatda olan 1,3 milyon ukraynalı qaçqın əhalinin 3,3 faizini təşkil edir. Mart ayında dərc edilən sorğuya görə, çexlərin 85 faizi öz hökumətlərinin qapılarını ukraynalı qaçqınların üzünə açmasını dəstəkləyib. İyulda keçirilən daha bir son sorğu göstərib ki, ictimaiyyətin 75 faizi ukraynalıları qəbul etməyə üstünlük verir.

## Danimarka: Müharibə tarixi dəyişikliyə səbəb olur

İsveç və Finlandiya Ukraynadakı müharibəyə cavab olaraq NATO-ya üzv olmaq istəklərini açıqlayanda Danimarka da tarixi qərar verdi.

NATO-nun qurucu üzvlərindən biri olan Kopenhagen uzun müddətdir ki, Aİ-nin müdafiə siyasətində yer almırdı. Bununla belə, iyun ayında danimarkalıların 66,9 faizinin iştirak etdiyi referendumda Danimarka siyasətini Brüsselə uyğunlaşdırılması üçün dəstəkləndi.

Nəticələrin açıqlanmasından qısa müddət sonra Danimarkanın baş naziri Mette Frederiksen bildirdi ki, danimarkalılar Avropa və NATO-dakı müttəfiqlərimizə və Putinə çox mühüm mesaj verdilər: "Biz göstərməliyik ki, Putin azad ölkəni işğal edəndə və Avropada sabitliyi təhdid edəndə hamı bir araya gəlir. Danimarka indi müdafiə və təhlükəsizlik üzrə Avropa əməkdaşlığına qoşulacaq".

## Estoniya: Ukraynaya dəstək kəskin artdı

Enerji xərclərinin artması nəticəsində 23,2 faizlə Avropada ən yüksək inflyasiyanı yaşayan Estoniya qitədə Ukraynaya dəstək verən lider ölkələrdən biri oldu. Estoniya dövləti Ukraynaya 250 milyon avro hərbi yardım göndərib ki, bu da ölkənin illik müdafiə büdcəsinin üçdə birini təşkil edir.

Əvvəllər Sovet İttifaqının tərkibində olan Estoniya əhalisinin 4 faizini təşkil edən 50 min ukraynalı qaçqını qəbul edib, Rusiyaya qarşı sanksiyaları sərtləşdirməyə çağırıb və bu yaxınlarda rusların ölkəyə girişini qadağan edib. O, həmçinin sovet dövründən qalma abidələri bütün ölkədə ictimai yerlərdə yığışdırmağa başlayıb. Rəsmi Tallinn Rusiya qazının idxalını məhdudlaşdırmağı öhdəsinə götürüb.

## Fransa: Enerji müstəqilliyini inkişaf etdirməyə çalışır

Fransa qaz təchizatında Rusiyadan daha az asılı olsa da, nəticədə yaranan enerji çatışmazlığı Fransaya, eləcə də bir çox Avropa ölkələrinə təsir edir. Fransızlar 2020-ci ildə qaz ehtiyaclarının yalnız 17 faizini Rusiyadan idxal ediblər, lakin neft və elektrik enerjisi də daxil olmaqla, enerji xərclərinin artması iyulda inflyasiyanın 6,1 faizə yüksəlməsinə səbəb olub.

Vətəndaşlara kömək məqsədilə "yanacaq azaldılması" kimi müxtəlif tədbirlər həyata keçirilib. Bu yardımlar dekabr ayına qədər davam edəcək.

Hökumət həmçinin elektrik enerjisi ödənişlərinin artımını 4 faizlə məhdudlaşdırmaq və qazın qiymətini 2021-ci ilin oktyabr ayı



səviyyəsində dondurmaq üçün "tarif qalxanı" adlı tənzimləmə təqdim edib. Bu plan də 2022-ci ilin sonuna qədər uzadılacaq. Bundan əlavə, aztəminatlı ailələr üçün 230 milyon avro ayrılıb.

Nəhayət, hökumət ölkənin ən böyük elektrik şirkəti olan EDF-ni yenidən milliləşdirəcək. Ölkə bu cür tədbirlərlə Ukraynada müharibə təhlükəsi altında olan enerji müstəqilliyini qorumağı qarşısına məqsəd qoyub.

Fransa əvvəllər enerji ixracatçısı idi, lakin bu ixrac nüvə elektrik stansiyaları ilə bağlı problemlər səbəbindən zəiflədi. İyun ayına olan məlumata görə, 56 reaktordan 27-si bağlanıb. Lakin Fransa hökuməti də müharibənin yaratdığı qeyri-müəyyənlik səbəbindən nüvə stansiyalarını yeniləməyi planlaşdırır.

## Finlandiya və İsveç: Ukraynadakı müharibə neytrallığın necə bir kənara atıldığını gördü

Həm Finlandiya, həm də İsveç NATO-ya üzvlük üçün müraciət ediblər. İsveçdə hakim Sosial Demokratlar güclü neytrallıq ənənəsinə malik idi və səsvermədə iştirak edən ictimaiyyət arasında üzvlüyə xüsusi maraq yox idi.

Finlandiyada yalnız bir böyük siyasi partiya qəti şəkildə NATO-ya tərəfdar idi və üzvlük üçün ictimai dəstək onilliklər ərzində 30 faizdən aşağı qaldı. Lakin Rusiyanın Ukraynaya hücumu ilə hər şey dəyişdi. Altı ay sürətlə irəliləyən və artıq NATO ilə sıx ittifaqda olan iki ölkə hazırda NATO qüvvələri ilə öz ölkələrində quruda və havada müntəzəm hərbi əməliyyatlar aparır. Bu üzvlüyü şərh edən Türkiyə bu yaxınlarda müəyyən məcburi olmayan təminatlar müqabilində bu siyasəti dəyişdi, lakin Türkiyənin tələbləri ilə bağlı hələlik konkret nəticə əldə olunmayıb.

## Almaniya: Artan enerji qiymətləri Ukrayna ilə həmrəyliyə məcbur edəcəkmi?

Avropa İttifaqının heç bir böyük ölkəsi Almaniya qədər Rusiya enerjisindən asılı deyil. Odur ki, "Qazprom"un yaxın aylarda qaz təchizatını məhdudlaşdırması ehtimalı ölkədə ciddi narahatlıq yaradır. İsti hava şəraitində almanlar mümkün enerji böhranına hazırlaşmaq üçün bu qış elektrik qızdırıcıları alıblar. Almaniyada enerji qiymətləri ilə yanaşı, digər mühüm məsələ Ukraynaya silah tədarükü ilə bağlıdır. Kansler Olaf Şolz Kiyevə yardım üçün ağır silahlar göndərməkdə tərəddüd etdiyi üçün bütün Avropada tənqid edilib.

Müharibə həm də Almaniyanın ordusunu modernləşdirmək üçün 100 milyard avro xərcləmək qərarına gəlməsinə səbəb oldu. Hökumət qışa qədər qaz anbarlarını doldurmaq üçün dövlət sektorunda enerji qənaətini tapşırsa da, artıq artırılmış qaz tarifinə əlavə olaraq hər kilovatsaat üçün 2,4 sent qaz vergisi də əlavə edib.

Ancaq cəmiyyətin yəqin ki, bu vəziyyəti ciddi etiraz etmədən qəbul edəcəyi düşünülür.

## İtaliya: Seçkilər ölkənin Ukraynaya dəstəyini dəyişəcəkmi?

İtaliya Ukraynanı dəstəkləməkdə Avropa xəttində dayandı. İtalyanlar ukraynalıları öz ölkələrində və evlərində qarşıladılar. Təxminən 160,000 qaçqın qəbul edildi. Bundan əlavə, Kiyevə 150 milyon avro dəyərində ağır silahlar verilib. Bununla belə, artan inflyasiya və enerji qiymətləri İtaliya əhalisinin əhəmiyyətli hissəsinə təsir etməyə başladı və bu, ölkənin Ukraynaya dəstəyinin azalmasına səbəb oldu. Ölkə enerji idxalının təxminən 40 faizini Rusiyadan alırdı. İtaliyanın bütün aparıcı siyasi partiyaları Vladimir Putini və onun Ukraynaya təcavüzünü pisləsələr də, bir çox partiyalar, xüsusən də sağçılar, Rusiyayönümlü mövqe tutdular. İtaliya ictimaiyyəti də NATO-nun Ukraynaya istənilən müdaxiləsinə qarşıdır. Ukraynaya silah tədarükü məsələsində də ictimaiyyət arasında fikir ayrılığı var. İyun ayından etibarən italyanların demək olar ki, yarısı Ukraynaya silah göndərilməsinin əleyhinədir.

## Moldova: Aİ-yə üzv olmağa çalışır

Rusiyanın Ukraynanı işğal etməsindən cəmi bir həftə sonra Moldova hadisələr fonunda planlaşdırdığı Qərbyönlü kursunu sürətləndirərək Aİ-yə üzv olmaq üçün rəsmi müraciət etdi.

Daha sonra Brüssel Moldovanı Aİ üzvlüyünə namizəd etdi və bu, 27 üzvlü bloka qoşulma yolunda ilk mərhələ oldu. Lakin Rusiyanın Ukraynaya təcavüzü ilə təkcə ölkənin strateji istiqaməti dəyişmədi. Moldovada inflyasiya fevraldakı 18,52 faizdən bu ay 33,55 faizə yüksəlib və artıq Avropanın ən yoxsul ölkəsi sayılır.

Ölkə Rusiyadan enerji təchizatından çox asılıdır və avqustda bu maddənin qiymətləri 47 faiz artıb. Lakin Moldova müharibə başlayandan sonra ciddi qaçqın axını gördü. Yarım milyondan çox ukraynalı sərhədi keçib və 70 minə yaxın ukraynalı hələ də bu ölkədə yaşayır.

Bütün bunlar keçmiş prezident İqor Dodonun növbədənkənar seçkilər təyin etməsinə səbəb olub. Moldovanın baş naziri Nataliya Qavrilita deyib: "Bu axınla mübarizə Moldova hökumətinin son otuz ildə üzləşdiyi ən böyük problemlərdən biridir".

## Polşa: "Biz bunu əvvəllər demişdik"

Qonşu Ukrayna olan Polşa ilk qaçqın miqrasiyasında ön sıralarda idi. BMT-nin Qaçqınlar üzrə Agentliyinin məlumatına görə, avqust ayına kimi 1,3 milyon ukraynalı Polşaya qaçıb. Yeni gələnlərə kömək etmək üçün dövlət və özəl təşəbbüslərlə görünməmiş kütləvi səfərbərlik həyata keçirildi. Lakin artan yaşayış böhranı və yerli resurslara böyük təzyiqlə bəzi polyaklar hökumətin ukraynalıları öz xalqından üstün tutduğuna dair şikayətlərə səbəb oldular. Ölkədə aparılan sorğular göstərib ki, polyakların 90 faizi ukraynalı qaçqınların qəbulunu dəstəkləyib və bunda iki qonşu slavyan dövlətinin dil və mədəni yaxınlığı mühüm rol oynayıb. Bununla belə, müharibə Polşanın regional mövqeyini və əhəmiyyətini də artırdı. Prosesdə bir çox ekspertlər bildiriblər ki, Ukrayna müharibəsi Varşavaya mühüm regional oyunçu kimi diplomatik və hərbi imicini yüksəltmək imkanı verib.

## Rumıniya: Ukraynalı qaçqınlara kömək etmək üçün növbəyə düzülüb

Ukraynanın şimal-qərb qonşusu Polşa kimi Rumıniya da qaçan qaçqınlara yardım əlini uzadıb. Rusiya işğalının ilk günlərində Siret sərhəd-keçid məntəqəsinin hər iki tərəfində növbələr yaranmışdı: biri ölkəsini tərk edərək Rumıniyaya daxil olmağa çalışan ukraynalılar üçün, digəri isə qonşularına kömək təklif etmək üçün sərhədə gedən rumınlar üçün növbələr yaranmışdı. Ümumilikdə iki milyondan çox ukraynalı Rumıniyaya keçdi; Səlahiyyətlilər bildirirlər ki, 87 min ukraynalı, o cümlədən 39 mini uşaq bu ölkədə qalmağı seçib. Minlərlə rumıniyalı könüllü qaçqınlara pulsuz yemək, sığınacaq və nəqliyyatla köməklik edib, bəziləri isə onlara iş tapıb. Bu arada hakimiyyət onlara uşaqları üçün pulsuz tibbi xidmət və təhsil almağa icazə verib.

## Slovakiya: Müharibə mübarizəni alovlandırır

Ukrayna ilə həmsərhəd olan Slovakiya Rusiyanın fevralın sonundakı işğalından sonra Kiyevin əsas dəstəkçisi olub. Artıq Ukraynaya hava hücumundan müdafiə sistemi bağışlayan ölkədə döyüş təyyarələri parkının Kiyevə satılıb-satılmaması ilə bağlı qızğın müzakirələr gedir.

## Türkiyə: Ukraynanın ərazi bütövlüyünü tanıyır

Prezident Rəcəb Tayyib Ərdoğan müharibə başlayandan bəri Ukraynaya ilk səfəri zamanı Türkiyənin ölkənin yenidən qurulması üçün lazımi dəstəyi verməyə hazır olduğunu bildirib. Ərdoğan Ukraynaya səfəri zamanı bildirdi ki, Ukraynanın ərazi bütövlüyü və suverenliyinə dəstəyimizi tamdır: "Ukrayna ilə Rusiya arasındakı müharibənin masa arxasında həll olunacağına inanırıq". Müharibə dönəmində həm Rusiya, həmdə Ukrayna ilə əlaqə saxlayan Türkiyə lideri münasibətlərdə qızıl ortanı tapmağa çalışır.

***Qönçə Quliyeva***

# Quru sərhədləri niyə açılmır?

**_Rusiya iyulun 15-dən quru sərhədlərinin açılacağını qeyd etmişdir. Lakin buna baxmayaraq, Azərbaycandan Rusiyaya quru yolu ilə getmək işləməyəcəyinə dair qərarlar üzə çıxdı. Çünki Azərbaycan hələ də quru sərhədlərini kilid altında saxlayır._**

Üstəlik, yeni fərmana əsasən, iyulun 1-dən Naxçıvan Muxtar Respublikasının Sədərək və Culfa gömrük-sərhəd keçid məntəqələri sərnişinlərin daşınması üçün iki ay müddətinə bağlandı. Dövlət Sərhəd Xidmətindən (DSX) həmçinin bildirilmişdir ki, Nazirlər Kabinetinin 20 iyun tarixli 232 nömrəli qərarına əsasən, yükdaşıma, quru nəqliyyatı ilə ölkə ərazisinə giriş-çıxış istisna olmaqla, sərhəd sentyabrın 1-dək bağlıdır və daşınması dayandırılır. Quru sərhədini bağlamaq bir ölkəyə nə qədər başa gəlir və bundan kimə sərf olunur?



Azərbaycanın COVID-19 pandemiyası səbəbindən quru sərhədlərini açmaması şübhə doğurur.

Yoluxanların sayı son vaxtlarda çox olsa da , bir neçə ay öncə vəziyyət sabit idi. Ümumilikdə və dünyada bir çox ölkələrdə COVID-19 ilə bağlı məhdudiyyətlər aradan qaldırılır. Bununla belə, Azərbaycan da daxil olmaqla bir sıra ölkələr quru sərhədlərini bağlı saxlamağa davam edir" deyən o, virusun hava sərnişinləri arasında yayılması ilə bağlı öhdəlik götürmədiyini bildirir.

Əgər bu virusla əlaqəli olsaydı, o zaman uçuşlar da dayandırılmır? Beləliklə, COVID-19-un bununla heç bir əlaqəsi yoxdur. Lakin tez-tez deyilən təhlükəsizlik məsələləri ilə bağlıdırsa, bu izahat istənilən məntiqə ziddir. Bu mülahizələrə görə, yenə də hava hərəkəti də bağlanmalıdır. Quru sərhədlərin bağlı olması həm də sərhəd ticarətinə və turizmə ziyan vurur. Bundan başqa, vətəndaşlara maddi ziyan vurur.



Məsələn, Gürcüstanla həmsərhəd rayonlarda yaşayan və bu ölkəyə getməyə ehtiyacı olan insanlar cəmi 10 manata başa gələcək Azərbaycan-Gürcüstan sərhədini keçmək əvəzinə vaxt itirməyə, ciddi xərclər çəkməyə məcbur olurlar. Bakıya gedib oradan Tiflisə uçan təyyarə ilə (Bir tərəfli biletin qiyməti 105 Avro - təqribən.red.). Eyni şey İranla sərhəd bölgələrdə yaşayan vətəndaşlara da aiddir. Onlar Tehrana uçmaq üçün yenidən Bakıya getməlidirlər.

Bəlkə, həqiqətən də sərhədi bağlı saxlamaq üçün tutarlı səbəblər var. Belə olan halda sərhədlərin açılmamasının səbəbini vətəndaşlara heç olmasa həzm oluna bilən izahat verməklazımdır. Kifayət qədər nformasiya çatışmazlığı şayiələr doğurur və bu, nəinki zərər gətirir, həm də vətəndaşların narazılığını artırır.





**Milli Məclisin deputatı Ziyafət Əsgərov** SİA- ya açıqlamasında qeyd edir. Quru sərhədlərin bağlı olması sırf pandemik və-



ziyyətlə bağlıdır. Bununla bağlı cənab prezident də məlumat verib və vətəndaşlarımızın sağlamlığı bizim üçün daha önəmlidir. Sözsüz ki, bunun müəyyən iqtisadi çətinlikləri var, iqtisadi problemlər yaransa da, sağlamlıq naminə sözü gedən çıxış yollardan istifadə etməliyik. Statistikaya görə təəssüf ki, son vaxtlar yoluxanların sayında artım çoxalır. Nazirlər Kabineti bununla bağlı qərar qəbul etmişdir. Operativ qərargahın qərarı ilə noyabrın 1-ə qədər karantin rejimi yenə uzadılmışdır. Hansı cəhətdən analiz etsək, müəyyən qədər yan təsirləri var. Quru sərhədləri açsaq, bu qədər gediş-gəlişin artması təbii xəstəliyə yoluxanların sayında da özünü göstərəcək. Koronavirus pandemiyasının ilk dövrlərində sərhədlərin bağlanması məqbul və məqsədəuyğun bir tədbir idi. Belə ki, yeni, tip virusla səmərəli tibbi mübarizə vasitələri yox idi. Ona görə də həmin dövrdə inzibati məhdudiyyət və qadağaların tətbiqini, o cümlədən sərhədlərin bağlanmasını normal hal hesab etmək olar.

**Bu sözləri isə keçmiş millət vəkili Qulamhüseyn Əlibəyli** deyib. Lakin indiki şəraitdə Azərbaycanın quru sərhədlərinin bağlı saxlanmasının ağlabatan izahını tapmaq çətindir. Bir tərəfdən əhalinin böyük əksəriyyəti koronavirusa qarşı peyvənd olunub və bu, yenidən yoluxma risqini əsaslı şəkildə azaldır. Digər tərəfdən isə, Azərbaycana gələn hər bir şəxsdən peyvənd pasportu və ya testdən keçmək tələb olunur ki, bu da potensial virus daşıyıcılarının ölkəmizin ərazisinə daxil olmasının qarşısını almağa yönəlik bir tədbirdir. Üçüncü bir tərəfdən hava sərhədləri açıqdır və istənilən şəxs peyvənd pasportu və ya testin mənfi nəticəsə haqqında sənədi təqdim etməklə qanunvericiliklə müəyyən olunmuş qaydada ölkəmizin ərazisinə daxil ola bilər. Belə çıxır ki, şəxs təyyarə ilə ölkəmizin ərazisinə gələndə potensial virus daşıyıcısı olmur, lakin qatar, avtobus və minik maşını ilə gələndə təhlükəli virus daşıyıcısına çevrilir. Eyni zamanda müəyyən şərtlər daxilində quru sərhədlərini fərdi qaydada keçmək imkanı nəzərdə tutulur. Bu yaxınlara qədər Türkiyə ilə quru sərhəddi də açıq olub.



Bu gün əksər ölkələr quru sərhədlərini birtərəfli qaydada açıblar. Belə şəraitdə Azərbaycanın quru sərhədlərini bağlı saxlaması bir o qədər də məntiqi görünmür və hakimiyyət təmsilçiləri bunun səbəbləri barədə birmənalı izahat verməkdən yayınırlar. Görünür, pandemiyaya qarşı apardıqları mübarizəni yetərli hesab etmirlər və quru sərhədlərini bağlı saxlamaqla işlərini bitmiş hesab edirlər. Ona görə də quru sərhədlərinin nə vaxta qədər bağlı qalacağını proqnozlaşdırmaq çətindir.

**Milli Məclisin deputatı Fazil Mustafa** isə qeyd edir ki, quru sərhədlərin bağlanması son illərdə baş verən



xəstəlikdən daha çox başqa ölkələrdə baş verən müharibənin təsiri ilə olubdur . Buna görə də yaxın gələcəkdə bunun nə zaman açılacağını söyləmək çətindir. Amma burda hesab edirəm ki bütöv mənada sərhədlərin bağlanması yanlış bir addımdır. Ona görə ki, burda müxtəlif kategoriyadan olan insanlara güzəştlər tətbiq olunmalıdır. Onların xarici ölkələrə gedib gəlməsinə şərait yaratmalıdır. Birinci növbədə xəstələr, onları müşahidə eləyən şəxslər, ikinci isə tələbələr, müəllimlər və hər hansı bir şəkildə xaricdə vacib iş prosesini gerçəkləşdirən iş adamları . Bütün bunların işini məhdudlaşdırmaq işsizliyin ölkədə böyüməsinə və yoxsullaşmaya səbəb olur. Ona görə də mütləq mənada sərhədləri bağlamaq olmaz. Turizm, və digər sahələrdə bunu nəzərə ala bilərlər ki, çox adam getməsin yoluxma olmasın .Amma elə kateqoriyalı insanlar var ki, onlar ümüdlərini ancaq bu vaxta dikiblər və birdən birə yollar bağlı olanda onlar çox ağır vəziyyətdə qalırlar. Ona görə də yaxın zamanlarda sərhədlərin açılması ehtimalı böyük deyil.

Quru sərhədləri məsələsi dövlət əhəmiyyətli bir problemdir. Dövlətimizin, vətəndaşlarımızın təhlükəsizliyi ilə bağlı olan məsələdir. Hamımız arzu edirik ki, quru sərhədlərimiz tez açılsın. Bu, gediş-gəliş üçün çox problemlər yaradır. Ona görə də, zərər verən bir prosesdir. Ancaq dünyada baş verən müəyyən hadisələr var: Bu həm pandemiya ilə həm də başqa məsələlərlə bağlıdır. Yəqin ki, dövlət bunların hamısını nəzərə alır, götür-qoy edir və buna uyğun lazım olan tədbirləri görür. Doğrudur, gediş-gəliş çətinləşib, bir çox problemlər yaranıb, amma təhlükəsizlik məsələlərinə daha çox diqqət yetirmək lazımdır. İndi Gürcüstanda da, Türkiyədə də yeni yayılan xəstəliyin işarələri artıb.

***Havar Şəfiyeva***

ARAŞDIRMA

TƏHLİL + YANAŞMA

# Mahallar mahalı ZƏNGƏZUR

**Azərbaycanın qədim tarixə malik, bənzərsiz coğrafi mövqeyinə görə ulu Yaradanın bu xalqa xüsusi bəxşişi sayılan Zəngəzur mahalı bütün cəhətləri ilə ta qədimdən dillər əzbəri olmuş, mahallar mahalı adlandırılmışdır. Əsrlər boyu Azərbaycanda yaranan neçə-neçə dövlətləri yola salan, tarixə şahidlik edən, sinəsindən ötən karvanların bələdçisi olan bu qədim torpaq elə bu xüsusiyyətlərinə görə daim yadellilərin tamahına çevrilib.**

Zəngəzur mahalı Azərbaycanın elə bir ərazisində yerləşir ki, bir əsr bundan əvvələ qədər ölkəmizin digər qədim ərazisinə - Naxçıvana quru yol buradan gedirdi. Və sonrakı illərdə Zəngəzurun bu əhəmiyyətli strateji mövqeyi ətrafdakı düşmənlərin diqqətini o qədər cəlb etdi ki, tamahlarını salıb havadarlarını qızışdırmaqla mahallar mahalının Azərbaycandan qopardılmasına nail oldular və beləliklə də Azərbaycanın qədim diyarına -Naxçıvana gedən quru yollar kəsildi. Bu proses artıq bir əsrdən artıqdır ki, davam edir.

Lakin 2020-ci ildə İkinci Vətən Müharibəsində əldə etdiyimiz tarixi Zəfər Zəngəzur mahalına da öz işığını saldı və ölkəmizin başçısı Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan 10 noyabr Bəyannaməsinə Naxçıvana quru yolun açılması ilə bağlı (hansı ki, o yol Zəngəzurdan keçir) bəndi böyük narazılıqlara baxmayaraq saldırmağa nail oldu. Beləliklə, artıq Zəngəzur dəhlizinin açılması zəruri məsələyə çevrildi. O dəhliz ki, tək Naxçıvanla quru yolun bərpasına xidmət etməyəcək, eyni zamanda region dövlətlərinin bu dəhliz vasitəsilə dünyaya çıxışı təmin olunacaq.

Bütün dövrlərdə Zəngəzur mahalının Azərbaycandan qopardılması müzakirə mövzusu olub. Tarixçi alimlərimizin tədqiqatları, açıqlamaları bütün dünyanın ermənilər tərəfindən beyinləri yanlış məlumatlarla doldurulan maraqlı dairələrinə bu torpağın Azərbaycana məxsus olduğunu sübut edib.














## Qədim Zəngəzur mahalı

Zəngəzur mahalı yeddi rayondan ibarət olub, hal-hazırda onun dörd rayonu : Kafan, Gorus , Qarakilsə (Sisyan), Mehri Ermənistan ərazisində, üç rayonu Zəngilan, Qubadlı, Laçın isə Azərbaycan ərazisində yerləşir. 1933-cü ildə isə rəsmi Moskvanın qərarı ilə Zəngəzurun rayonlara bölünməsi ilə əlaqədar Zəngəzur adı xəritədən silinir.

Zəngəzurun ümumi sahəsi 7 892 kvadratkilometr olub. 2020-ci il İkinci Vətən Müharibəsində Zəngilan, Qubadlı, Laçın rayonları işğaldan azad olundu. 4505,5 kvadratkilometr sahəni əhatə edən Kafan, Gorus , Qarakilsə (Sisyan), Mehri rayonları isə 100 ildən artıqdır ki, yenə erməni işğalı altındadir. 1920-ci ildə Zəngəzurdan qopardılıb daşnaklara verilən bu ərazi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən 105,5 kvadratkilometr çoxdur.

1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7 %), 91-i kürd kəndi (27,8%) və 1813-1828-ci illər müqavilələrindən sonra bura köçürülən yalnız 81 erməni kəndi ( 24,8%) təşkil olunmuşdur. Zəngəzur adındakı "zəngi" leksik vahidi tədqiqatçılara görə türk tayfa adıdır. Zəngi tayfaları Azərbaycan Atabəylər, Səfəvilər hakimiyyətlərinin əsas sütunlarından biri olub.

Qədim Azərbaycan torpağı olan Zəngəzurun 1920-ci il dekabrın 1-də sovet rəhbərliyi tərəfindən Ermənistana verilməsi Naxçıvan ərazisini respublikamızdan tamamilə ayırıb. Həmin zaman təxminən 3100 kvadratkilometr sahəsi olan Şərqi Zəngəzur (Zəngilan, Qubadlı, Laçın, Cəbrayıl rayonları) Azərbaycanın tərkibində qalsa da, sahəsi 4 min kvadratkilometrə yaxın olan Qərbi Zəngəzur (Qarakilsə (Sisyan), Mehri, Qafan, Gorus rayonları) Ermənistana verilib.

Ən qədim tarixi mənbələrlə yanaşı, bir çox dünya alimləri tərəfindən aparılan tədqiqat və araşdırmalar Zəngəzurun IV-IX əsrlərdə - Alban dövlətinin, daha sonra Sasani imperiyası və Ərəb xilafətinin, IX-XI əsrlərdə ərəb xilafətinə qarşı müharibələrdə qalib gəlmiş qədim Azərbaycan dövlətlərinin - həmin ərazilərdə əsrlər boyu müxtəlif adlar altında hakimiyyətdə olmuş Sacilər, Salarilər və Rəvvadilərin, XII-XIII əsrin əvvəllərində - Atabəylərin, XIII-XIV əsrlərdə - Hülakülərin, XIV əsrdə - Cəlarilərin, daha sonra Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrin başlanğıcında - qüdrətli Səfəvi dövlətinin, XVIII, XIX əsrin 20-ci illərində Qarabağ xanlığının tərkibində olduğunu təsdiq edir.

Zəngəzurun tarixini araşdıran digər tədqiqatlarda 1905-1907 və 1918-1920-ci illərdə silahlı erməni dəstələrinin təcavüzünə məruz qalmış Zəngəzurun 115 müsəlman kəndinin talan edildiyi, yandırılaraq yer üzündən silindiyi, 4472 qadın və uşağın erməni silahlıları tərəfindən xüsusi amansızlıqla öldürüldüyü tarixi sənədlər və faktlarla sübuta yetirilir.

1920-ci ilin 10 avqustunda Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Bürosunun qərarı ilə Zəngəzur Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazi" elan olunsa da, qərarın qəbulunda bir nəfər də azərbaycanlı iştirak etmirdi. Beləliklə, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi tərəfindən 1920-ci il noyabrın 30-da keçirilən iclasın qərarı ilə Zəngəzur sovet Ermənistanının tərkibinə verilir. Bu qərarın nəticəsi olaraq Azərbaycanın Naxçıvan bölgəsi ölkə ərazisindən ayrı salınır və beləliklə, Azərbaycanın Türkiyə ilə, eləcə də bütün türk dünyası ilə quru əlaqələri kəsilir.

## Ərazi dilənmə üzərində qurulan "dövlət"

Əməkdar elm xadimi, professor Fəxrəddin Səfərlinin əsərlərində oxuyuruq ki, Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq Azərbaycana köçürülən və XIX yüzillik boyu davam edən köçürmə prosesi nəticəsində sayları süni surətdə artırılan ermənilər tarixi torpaqlarımızda yerləşdirildikdən və möhkəmləndirildikdən, xüsusilə yüzilliyin sonlarında özlərinin bir sıra təşkilatlarını (Qnçaq, Daşnaksutyun, Erməni vətənpərvər ittifaqı) yaratdıqdan sonra ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyə başladılar.

Ardı Səh. 12

# Mahallar mahalı ZƏNGƏZUR

Əvvəli Səh. 11

Ermənilərin ərazi iddialarında Azərbaycanın əzəli və əbədi torpaqları olan Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ(keçmiş) bölgələri əsas yer tuturdu. Bu iddialarını, xüsusilə "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün ermənilər XX yüzilliyin əvvəllərində fəaliyyətlərini daha da gücləndirdilər.

Havadarlarının, xüsusilə iri dövlətlərin himayəsi ilə yaranmış hər bir əlverişli məqamdan məharətlə istifadə edən ermənilər I Dünya müharibəsində məğlubiyyətə uğrayan Rusiya imperiyasının dağılmasından sonra 1918-ci il mayın 28-də müstəqilliklərini elan etsələr də, heç bir əraziləri və paytaxtları yox idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkəmizə qarşı ərazi iddialarına son qoyulacağını güman edərək 1918-ci il mayın 29-da ətraf ərazilərlə birlikdə İrəvan şəhərini ermənilərə verdi. Onlar bağışlanan bu ərazilər hesabına 9,5 min kvadratkilometr ərazidə özlərinin daşnak hökumətlərini yaratdılar və bununla kifayətlənməyib ərazi iddialarını gerçəkləşdirmək üçün səylərini artırdılar. Bir sıra Azərbaycan torpaqlarını, xüsusilə Zəngəzuru işğal etdikdən, 1920-ci il noyabrın 29-da Ermənistan sovetləşdikdən sonra bolşeviklərin yardımı ilə ermənilər daha da fəallaşdılar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ (keçmiş) heç bir əsas olmadan yenidən "mübahisəli ərazilər" elan olundu. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri, o cümlədən Nəriman Nərimanov bu siyasətin əleyhinə çıxsa da, hətta bununla əlaqədar Moskvaya teleqramlar göndərərək ciddi etirazını bildirsə də, bir nəticə əldə olunmadı. Əksinə, ərazi məsələlərinin birtərəfli, daşnak-bolşeviksayağı "həlli" nəticəsində 1920-ci il avqustun 10-da Rusiya ilə Ermənistan arasında imzalanan müvəqqəti sazişə əsasən Şərur-Dərələyəz qəzası qeyd-şərtsiz Ermənistana verildi. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi bolşeviklərin əli ilə rəsmiləşdirildi. 20 iyul 1921-ci ildə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradıldı.

XX əsrin 20-ci illərinin sonlarında ermənilər öz istəklərinin həyata keçirilməsi sahəsində daha bir addım atdılar. Bu məsələdə 1922-ci il martın 12-də yaradılan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası mühüm rol oynadı. Həmin vaxtlar Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının on kəndi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qarçıvan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi, başqa sözlə desək, 657 kvadratkilometr Azərbaycan ərazisi Ermənistana verildi. Bu zaman beynəlxalq hüquq normalarına məhəl qoyulmadı, Naxçıvanın ərazi bütövlüyünün qarantı olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars müqavilələrinin şərtləri kobud surətdə pozuldu.

1930-cu ildən sonra bütün müttəfiq respublikalarda olduğu kimi, Ermənistan SSR-də də yeni inzibati ərazi bölgüsü - rayonlar yaradılarkən həmin yaşayış məskənləri yerləşdiyi coğrafi mövqeyə görə yeni təşkil olunan rayonların tərkibinə verildi.

Professor onu da vurğulayır ki, ermənilər daha sonra Azərbaycandan qopardıqları ərazilərin adlarını dəyişdirib xəritələşdirmək işləri ilə məşğul olmuşlar.

### Zəngəzur və Naxçıvan

Ümummilli lider Heydər Əliyev demişdir: "...XX əsrin 20-ci illərində yeni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikanın sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mehri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi - nəzərdən müəyyən çətinliklər yaranıbdır".

Tarix elmləri doktoru, akademik İsmayıl Hacıyev bildirir ki, Zəngəzur Ermənistana verilməsəydi, Naxçıvanla Azərbaycanın quru əlaqəsi kəsilməyəcəkdi. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvana muxtariyyətin verilməsi məsələsini zəruri etdi. Naxçıvanın muxtariyyət statusunun əsası 1921-ci il 16 mart tarixli Moskva müqaviləsi ilə qoyulub, 1921-ci il 13 oktyabr tarixli Qars beynəlxalq müqaviləsi ilə həmin status daha da möhkəmləndirilib.

Akademik deyir ki, hələ 1918-1920-ci illərdə ermənilərin məqsədi Naxçıvanı qapalı vəziyyətə salıb oranı işğal etmək idi: "Onlar deyirlər ki, Ermənistan Naxçıvansız yaşaya bilməz. Hətta 1918-1920-ci illərdə ingilislər və amerikanlar Naxçıvanın Ermənistana verilməsi üçün vasitəçilik edirdilər. Həmin dövrdə ermənilərin iddiası Naxçıvanı qapalı vəziyyətə salıb onu işğal etmək idi. Ermənilər hətta deyirdilər ki, azərbaycanlılar Naxçıvanı Ermənistana versələr, biz Qarabağ və Zəngəzur iddialarından geri çəkilərik. Ermənistan yazıçısı Zori Balayan da "özümüzü ona görə günahkar sayırıq ki, biz hadisələrə Naxçıvandan başlamadıq. Yəni Qarabağdan deyil, hadisələrə Naxçıvandan başlamalı idik" deyirdi. Ermənilərin əsas məqsədi Naxçıvanı tutmaq idi. Amma Qars müqaviləsi ilə Türkiyə Naxçıvanın qarantı funksiyasını öz üzərinə götürdüyündən bu, mümkün olmadı".

Akademik qeyd edir ki, Naxçıvanın Azərbaycanla quru əlaqələrinin itməsi regionun sosial-iqtisadi əlaqələrinin inkişafına mənfi təsir göstərdi. Ancaq sonradan Bakı-Şərur-Yerevan (Ermənistanın təcavüzü bu dəmiryolunun bağlanmasına səbəb oldu) dəmiryolu çəkildikdən sonra əlaqələr bir qədər genişləndi: "Təbii ki, şose yolu yenə də yox idi. Hələ 1970-ci illərdə ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olarkən onun təşəbbüsü ilə Naxçıvana getmək üçün hərbi yol adı ilə şose yolunun tikintisinə başlanılmışdı. O yol böyük dağlardan çəkilirdi, bunu mən özüm də görmüşdüm. Sonradan ermənilər bu yolun tikintisinə mane oldular, daha sonra ulu öndər hakimiyyətdən getdi və yolun tikintisi məsələsi yarımçıq qaldı. Bu gün dəmiryolu bərpa edilməklə yanaşı, şose yolu da çəkilməlidir. Bu, Naxçıvanın sosial-iqtisadi inkişafına, Azərbaycanın türk dünyası ilə birləşməsinə çox böyük müsbət təsir göstərə bilər".

Bəli, vaxtilə Zəngəzur Ermənistana verilməsəydi, Naxçıvanla Azərbaycanın quru əlaqəsi kəsilməyəcəkdi. Yaxın Şərq ölkələri ilə Azərbaycanı, eləcə də bütün Qafqazı əlaqələndirən əsas yolların kəsişdiyi, əlverişli mövqedə yerləşən Naxçıvan bir əsr əvvələdək Azərbaycandan ayrı deyil, ona bitişik olub. Tarixi sənədlərə görə, Naxçıvanla Azərbaycanın quru əlaqələrinin kəsilməsi düz 100 il əvvəl baş verib.

### Zəngəzur dəhlizi Naxçıvanın mühasirədən xilası, həm də yeni nəqliyyat damarıdır

Qarabağın işğalı ilə yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail oluruq. Ölkə Prezidentinin xalqımıza müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".

Azərbaycanın regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusunda olduğunu bildirən Prezident İlham Əliyev "Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək" demiş və Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət etmişdir.

Zəngəzur dəhlizinin əhəmiyyətindən, bununla bağlı həyata keçirilən işlərdən danışan dövlətimizin başçısı onu da vurğulamışdır ki, əlbəttə, bütün Qarabağda və Şərqi Zəngəzurda bildiyiniz kimi indi, genişmiqyaslı işlər aparılır, o cümlədən bu yolun tezliklə inşa edilməsi mənim tərəfimdən əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Biz bu yolu cəmi bir il ərzində inşa etdik, 32 kilometr uzunluğunda olan bir yoldur. Ondan əvvəlki dövrdə, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz bu yolun marşrutu ilə bağlı Rusiya tərəfi ilə danışıqlara başlamışdıq. Yəni, bu yol öz-özünə yaranmadı. Biz bu yolu razılaşdırdıq. Bir neçə marşrut var idi və nəticədə bu marşrut seçildi. Rusiya Müdafiə Nazirliyi ən yüksək səviyyədə bu marşrutu bizimlə razılaşdırdı və təsdiqlədi. Əgər başqa cür olsaydı, biz Rusiyanın müvəqqəti nəzarətində olan ərazidə necə yol inşa edə bilərdik? Yəni, bu, təbiidir. Əgər kimsə bizi ittiham etmək istəyir ki, biz nəyisə qanunsuz etmişik, yaxud da, hansısa birtərəfli addım atmışıq, qətiyyən belə deyil. Biz istənilən səviyyədə bunu sübut edə bilərik. İndi Rusiyanın rəsmi orqanlarına sorğu göndərilə bilər, necə bu yol tikilib bütün sənədlər var, bütün razılaşmalar var. Bu marşrut razılaşdırılmışdır. Əlbəttə ki, biz bu marşrutu Ermənistanla razılaşdırmalı deyildik. Çünki Ermənistanın buna heç bir aidiyyəti yoxdur. Sadəcə olaraq, Ermənistana bildirildi ki, Ermənistan sərhədinə çıxış hansı nöqtədən olacaq və onlar da öz tərəfindən yeni yolu o nöqtəyə gətirib çatdırmalı idilər. Amma əfsuslar olsun ki, bunu etmədilər. Nə üçün? Vaxtı uzatmaq üçün. Bunun başqa səbəbi yoxdur.

Bəli, kimlərinsə istəyindən asılı olmayaraq Zəngəzur dəhlizi açılacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Zəngilanı Naxçıvanla ayıran Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmiryolu tikiləndən sonra bütün infrastruktur yaradılacaq" deyən dövlət başçısı əlavə edib ki, Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq.

Hazırda Horadiz-Ağbənd yolunun tikintisi sürətlə aparılır. Xatırladaq ki, uzunluğu 123.6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) boyunca 15 avtomobil körpüsü, 5 yolötürücü, 54 yeraltı keçidin inşası da nəzərdə tutulub ki, bu çərçivədə hazırda xeyli iş görülüb. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Qədim Zəngəzur mahalı bizimdir, tarixi ədalətin bir hissəsidir ki, tezliklə o da bərpa olunacaq və biz yaxın gələcəkdə orada olacağıq, o yolla qədim torpağımıza gedə biləcəyik. 100 illik fasilə bəsdir. Hər kəsin öz torpağında oturmasının, başqasından qopardığı ərazilərin geri qaytarmasının vaxtının çatdığını zaman özü gətirib.

*Mətanət MƏMMƏDOVA*






ANALİTİK+AKTUAL

# Ermənilərin "ümidlər siyahısı"...

*Separatçılar və revanşistlər Rusiya bayrağından bir şey çıxmazsa, Fransa bayrağını daşıyacaqlar?*



**44 günlük müharibədən sonra istər Ermənistanda, istərsə də Qarabağda yaşayan revanşist məqsədli ermənilər hazırkı dövrə qədər onlarla "ümidlərə" qapılıblar. Hətta belə desək, yalnız Azərbaycanda deyil, eləcə də sağlam düşüncəli dünya ictimai rəyində istehza hədəfinə çevrilən bu məsələyə "ermənilərin ümid siyahısı" adı verilib. Misal üçün, Türkiyədə meşə yanğınları baş verərkən, yaxud Azərbaycanda hər hansı fövqəladə hadisə yaşanarkən, eləcə də hansısa ölkənin nüfuzlu erməniпərəst siyasi-ictimai fərdi, sadəcə, ağlına gələn boş sözləri gəvəzələyərkən həmin ermənilər dərhal bu kimi məsələləri "ermənilərin ümidlər siyahısına" əlavə edirlər. Görünür, Xankəndidə baş verən növbəti aksiya da həmin faktın davamıdır.**

## Xankəndidəki aksiya Ermənistanda Rusiya sülhməramlılarına qarşı keçirilən etirazlar fonunda baş tutub

Belə ki, avqustun 23-də Xankəndidə yaşayan bir neçə yüz erməni uzunluğu 100 metr olan Rusiya Federasiyasının bayrağını küçələrdə gəzdiriblər. Onu da qeyd edək ki, erməni KİV-lərinin yazdığına görə, "aksiya şəhər sakinlərinin təşəbbüsü ilə təşkil olunub" və Xankəndidə ən böyük rusiyayönümlü küçə yürüşlərindən biri kimi qeydə alınıb. Lakin daha bir dəqqət çəkən amil budur ki, sözügedən aksiya Ermənistanda Rusiya sülhməramlılarına qarşı keçirilən etirazlar fonunda baş tutub. Həmçinin xatırladaq ki, anti-Rusiya etirazları məhz qəhrəman Azərbaycan Ordusunun "Qisas" əməliyyatından sonra kütləvi xarakter almağa başlayıb. Başqa tərəfdən, daha bir diqqət çəkən faktor budur ki, Ermənistanda başlayan anti-Rusiya xarakterli aksiyalar, məhz Xankəndiyə də sıçramışdı və şəhərdə bənzər aksiyalar keçirilmişdi. Hətta tələb olunmuşdu ki, rus sülhməramlılarının yerinə fransızlardan ibarət kontingent yerləşdirilsin.

## Artur Osipyan anti-Rusiya mitinqi keçirərək bəyan etmişdi ki, "sülhməramlıların fəaliyyətləri Rusiya dövlətinin siyasətinə qarşıdır" və s...

Hətta Xankəndidə, avqustun 23-də keçirilən bayraqgəzdirmə sirk tamaşasından əvvəl - avqustun 21-də yerli "siyasi partiya" liderlərindən biri olan Artur Osipyan anti-Rusiya mitinqi keçirərək bəyan etmişdi ki, "sülhməramlıların fəaliyyətləri Rusiya dövlətinin siyasətinə qarşıdır" və s...

Yeri gəlmişkən, qondarma "dqr" adlı saxta qurumun "parlament" təmsilçiləri avqustun 23-də Rusiya sülhməramlıları kontingentinin (RSK) komandanı, general Aleksandr Volkovla görüşüblər. Görüş əsnasında RSK komandanı bildirib ki, Azərbaycan dövləti tərəfindən çəkilmiş yeni yol Laçın dəhlizində olduğu kimi, bənzər statusunu daşıyacaq və 5 km-lik təhlükəsizlik ərazisini təşkil edəcək. "Avqustun əvvəlində baş vermiş hadisələrdən nəticə çıxarılaraq təhlükəsizliyin təminatı üçün əlavə cəhdlər göstəriləcək", deyə Volkov separatçılarla söhbətində bildirib.

## Separatçılar Laçın şəhərinin, Zabux və Sus kəndlərinin aqibətinin get-gedə Xankəndiyə tərəf gəldiyini hiss edirlər

Məhz bu amildən də çıxış edərək belə nəticəyə gəlmək olar ki, avqustun 23-də Xankəndi küçələrində gəzdirilən 100 metrəlik bayraq sirkində heç də şəhərin sadə sakinlərinin maraqları yoxdur, yəni bu məsələnin arxasında dayanan bilavasitə separatçı-quldur dəstələridir və onlar həmin vasitə ilə "növbəti erməni ümidi" siyahısını genişləndiriblər. Yəqin Laçın şəhərinin, Zabux və Sus kəndlərinin aqibətinin get-gedə Xankəndidə və s. ərazilərimizdə də yaşanacağının qaçılmaz fakt olduğunu anlayan separatçılar indi də ümidlərini Rusiya bayrağına bağlayıblar. Amma bu günlərdə Sərsəng su anbarının da Azərbaycan mütəxəssisləri tərəfindən baxışın keçirilməsi, həmçinin Qarabağda dəyişən digər proseslər sözügedən "erməni ümidlərin" birdəfəlik puç olacağını bəri başdan agah edir.

***Rövşən RƏSULOV***

***P.S. Yəqin Xankəndidə Rusiya bayrağı sirkindən sonra Fransa bayrağı sirki də göstəriləcək. Çünki belə bir həyasız xislətli məxluqlardan istənilən addımları gözləmək olar...***



VƏLİ VƏLİYEV

# Marşrut №88...

***Sizə kimdən deyim, nədən danışım, bizim bu şəhərdən. Daha doğrusu, bir çox rayon əhlinin yaşamaq həsrətində olduğu Bakıdan. Xəzərin sahilindəki bu paytaxt şəhərində Sovetin vaxtından ilişib qalmışam. Çox hadisələrlə rastlaşmışam, "alabaş" avtobuslardan "BakuBus"a qədər, bütün marşrutları görmüşəm. Hərəsinin də bir özəlliyi ilə. Qabaqlar belə idi ki, sürücülər nağd pul aldıqları sərnişinləri hər addımda salona alır, istədiyin yerdə də düşürürdülər. Sürücülərin bu "xeyirxahlığı" düşən sərnişinləri razı salsa da, digər sərnişinlərin səsli-küylü etirazı az qalırdı maşının tavanını başından qoparsın. İncavarıdan hay-küy tez kəsilirdi. Bir sözlə, avtobus marşrutlarındakı qayda-qanunu sürücü-sərnişin münasibətləri tənzimləyirdi.***

Vaxt gəldi, vədə yetişdi, şəhərimizdə yeni xidmət növləri yarandı, avtobus marşrut xətlərinə "BakuBus"lar buraxıldı. Hamı sevindi, rahatlıq nəyə desən dəyər. Öndən pulunu kartla ödəyirsən, arxa tərəfdən düşürsən. Daha istədiyin yerdə düşmək yox, qışqırmaq, bağırmaq yox. Sərnişinlər elə həminkilər idi, sanki avtobusun görkəmindən, iç divarında yazılmış qadağalardan utanıb özlərini təmkinli aparır, üzlərinə əməlisaleh, mədəni adam görkəmi verirdilər. Yayqış kondisionerin işləyib-işləməməsi isə yeni etiraz dalğası yaratsa da, son vaxtlar, deyəsən, sürücülər insanların "xoş damarını" tapıblar, bu məsələni də yoluna qoyublar. Sərnişinlər də zamanın nəbzini tutub, qaydalara demək olar ki, əməl edirlər, amma...

Bəli, gələk əsas mətləbə. Yəqin ki, indiyədək elə sərnişin olmaz ki, avtobuslarda baş verən heç olmasa bir hadisəyə-davaya şahidlik etməsinlər. Sərnişinlər arasında dava da olur, amma olayların çoxunun bir tərəfində sürücülərin olması artıq adi hala çevrilib. Niyə? Çünki qaydalara bilavasitə əməl etməyə borclu olan sürücülər davanı sözdən əlbəyaxaya çevrilməsinə səbəb olurlar. Başa düşürük, şəhərdən axşama kimi sükan arxasında Bakının dar və tıxaclı küçələrində 15, bəzən 20 metrlik avtobusu idarə etmək də hər oğulun işi deyil. Amma hər sərnişinlə söz güləşdirmək, çənə-boğaz etmək də onlarlıq deyil. Onların əsas funksiyası 70-80 nəfərin salonunda olduğu avtobusu qəzavü-qədərsiz mənzil başına çatdırmaqdır. Qalanı bir hekayə, türklər demiş. Sürücü necə xəttə buraxılıb, onun psixoloji durumu necədir, evdən çıxanda evdəkilərlə, xəttə buraxılanda müdirlə münasibətləri necə olub, bütün bunların sərnişinə heç bir dəxli yoxdur, vəssalam...

Sırağagün işdən yorğun çıxmışdım, evə tez çatmaq istəyirdim. Sahil metrosunun yaxınlığındakı dayanacaqda durub 5, 125, 88 saylı avtobuslardan birini gözləyirdim. Dayanacaqda adam da çox idi və hamının baxışları həsrətlə bu avtobusların gələcəyi yola dikilib qalmışdı. Hiss olunurdu ki, hamı evinə tələsir. 125 gəldi, avtobusun ön hissəsi dolu olsa da, arxa tərəfi boş idi. Yerdəkilər nə qədər sürücüdən insanların arxa tərəfə getmələrini tələb etməsini istəsələr də, sürücü yerindən tərpənmədi, sanki eşitmirdi. Xülasə, sərnişinlərin bir, ya ikisi minə bildi, qalanları müxtəlif ünvanlara xoşagəlməz biriki ifadə işlədib sakitləşdilər. Bir az keçdi üfüqdə 88 saylı avtobus göründü. O gələnə qədər sərnişinlər ora-bura vurnuxmağa, avtobusun harada dayanacağını müəyyənləşdirməyə çalışdılar. Amma sürücü sanki sərnişinlərdən acıq çıxırmış kimi avtobusun ön girişini dayanacaqda duran avtomobilə, sözün əsl mənasında söykədi, aralarında 20 santimetr yer qaldı. Evinə tələsən sərnişinlər isə basabasla avtobusa doluşmağa çalışırdılar. Halbuki, sürücü avtobusu bir metr arxada saxlasaydı hamı rahatca içəri daxil ola bilərdi. Dözə bilmədim, sürücüyə dedim ki, əmioğlu, olmaz ki, avtobusu bir az arxada saxlayasan, yerdəki maşına sürtünə-sürtünə içəri girirık, məgər görmürsən? Mənə qayıtdı ki, o iradı mənə etməkdənsə, o avtomobilin sürücüsünə de, burada saxlamasın. Əsəblərin getdikcə gərginləşməyə, məni təbimdən çıxarmağa başladı. Dedim, a kişi, mən BNA-nın işçisi deyiləm. Sənin borcundur ki, sərnişinlərin salona daxil olması üçün rahat keçid yaradasan. Sən niyə arxada saxlamırsan ki, biz də əyin-başımızı avtomobilin tozuna bulaşdırmadan içəri keçək. "Keç cəhənəm ol arxaya, ağıllı çıxıb mənim üçün", deyə bağırdı üstümə. Ona qarşılıq verməkdən özümü güclə saxladım. Yenə də ona düz hərəkət etmədiyi xəbərdarlığını etdim. Baxdım, qanan adam deyil. Sərnişinlər də sanki, sürücülərin belə reaksiyasına alışıblar kimi, mənə əsəbləşməməyi məsləhət gördülər. Düşündüm ki, boş yerə, başqalarının günahı ucbatından niyə "cəhənnəm ol" "ödülünü" almalıyam. Ola bilməz ki, bu ikiayaqlı özü o ünvana getsin, yaxud bunu 88 saylı marşruta buraxanlar?!

Bir az da 88 saylı avtobus marşrutundan danışaq. "İyirminci sahə"yə 5 №-li marşrut açmışdılar, daha doğrusu, bu marşrutdakı avtobusları "BakuBus" avtobusları ilə əvəzləmişdilər. Hər kəs razılıq edirdi. Rahatlıq, komfort, sərnişin məmnunluğu... Amma "Sahil" metrosundan bu istiqamətə gedən 88 saylı marşruta isə az hallarda minirdik. Niyəsini də deyəcəyəm. Çünki bu xəttə çıxanlar sanki kiminsə acığına köhnə maşınlarını dəli kimi sürürdülər. Hələ iki il bundan əvvəl facebook-da belə bir status paylaşmışdım ki, sürücü avtobusu elə sürətlə idarə edirdi ki, iş yerimdən "iyirminci dairə"yə qədər qulağımı qaşıya bilmədim. Bəziləri bunu zarafata yozmuşdu, amma reallıq idi. Bu marşrut xəttində olanların əksəriyyəti indi də "BakuBus"u dəli kimi sürürlər. Maşın və sürücü cəhənəm, bəs sərnişinlərin təhlükəsizliyinə kim cavab verəcək? Bəlkə bu marşrutda olanlar həqiqətən canidirlər, yaxud da canından beziblər, insanların həyatı onlar üçün heç bir əhəmiyyət kəsb etmir, yaxud bunların kiminsə qarşısında öhdəlikləri yoxdur, məsuliyyət daşımırlar. Bəlkələr çoxdur...

Sonda, Mirzə Cəlil demişkən, sözümü o kəslərə deyirəm ki, onlar biz sərnişinləri eşitməyə borcludurlar, onların çörəyi bu sərnişinlərdən çıxır. O cümlədən "BakuBus" şirkətində çalışanlaradır sözümüz, eşidin, sərnişinlərin sizə heç bir borcu yoxdur və sizi bu xidmət sahəsində çalışmağa biz məcbur etməmişik. Əgər belə davam edəcəksinizsə, zəhmət olmasa, gedin, özünüzə başqa iş tapın, bizim sizinlə döyüşməyə, cəng etməyə, söz güləşdirməyə nə vaxtımız var, nə də həvəsimiz. Mədəniyyətimiz də buna imkan vermir. O cümlədən bir həpəndin ucbatından avtobusda ölmək fikrimiz də yoxdur. Sürücülüyü özünüzə yaraşdırmırsınızsa, xidmət sahəsini özünüzə təhqir hesab edirsinizsə, gedin, harada sizə rahatdırsa orada çalışın. Təki imkan verin bu sahəni bacaranlar gəlsin, yoxsa problemləriniz çox olacaq.

Bu yazını qələmə alanda BNA-ya zəng etmək, münasibət öyrənmək də yadıma düşdü. Amma bunu etmədim. Niyə? Çünki heç bir xeyri yoxdur. 3-4 ay bundan əvvəl 125 saylı marşrut avtobusunun sürücüsü yolun yarısında bütün sərnişinləri heç bir səbəb olmadan düşürdüyünə etiraz etdiyimdə, məni "işverən" adlandırdığı barədə etdiyim şikayət yəqin ki, BNA-nın başbilənlərinin yadındadır. Axırı nə oldu? Günahkar yenə mən çıxdım. Sən demə, mənim sözlərimdən sürücünün "gülü tökülüb". Qorxuram bu dəfə də şikayət edəm, 88 №-li avtobusun sürücüsü zəri tökülər, yazıqdır.

# Laçın, Zabux və Sus:

## daha bir önəmli informasiya!

**Separatçılar və eləcə də Ermənistan KİV-ləri cəmi iki həftədən sonra erməni maşınlarının Laçın şəhərini və Zabux kəndinə daxil olmadan keçəcəyi faktını saxta iddiaları ilə gizlətməyə çalışırlar**

Məlum olduğu kimi, bu gündən etibarən Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın tam nəzarətinə keçir. S?A xəbər verir ki, əldə edilmiş digər məlumata görə, yolun Ermənistan hissəsi istifadəyə veriləne qədər (gələn ilin mart ayına qədər) ermənilər Kornidzordan (Qərbi Zəngəzurda yaşayış massivi) sərhədə kimi müvəqqəti torpaq yolu ilə hərəkət edəcəklər. Daha dəqiq desək, ermənilər Laçın şəhərindən və Zabuxdan dayanmadan keçəcəklər.



### İki həftə sonra torpaq yolun salınması başa çatacaq

Qeyd edək ki, Azərbaycana məxsus avtomobillər də Tərtərdən Kəlbəcərə doğru hərəkət edərkən, məhz RSK-nın müşayiəti ilə hazırda sülhməramlıların müvəqqəti nəzarətləri altında olan Ağdərədən eyni vasitə ilə keçiblər. Xatırladaq ki, separatçı-terrorçu qurumun qondarma rəhbərliyi dezinformasiya yayaraq bildiriblər ki, ermənilər üçün hər iki istiqamətdə hərəkət guya daimi açıq olacaqmış və onlar rahatlıqla həmin yerlərdən keçəcəklərmiş və s.

### Növbəti qələbəmiz mübarək!

Lakin separatçılar və eləcə də Ermənistan KİV-ləri cəmi iki həftədən sonra erməni maşınlarının Laçın şəhərini və Zabux kəndinə daxil olmadan keçəcəyi faktını saxta iddiaları ilə gizlətməyə çalışıblar. Belə ki, iki həftə sonra torpaq yolun salınması başa çatacaq. 2023-cü ilin yazından isə yeni yoldan tam şəkildə istifadə ediləcək. Beləliklə, Azərbaycanın şanlı Ordusu Laçın şəhərinə, Zabux və Sus kəndlərinə daxil olur. Növbəti qələbəmiz mübarək!

AYRINTILAR

***Rövşən RƏSULOV***



# Meşələri kim yandırır?

**Elçin Bayramlı**

**Son illərdə dünyada meşə yanğınları artır. Planetin ağciyərləri sayılan Amazon, Sibir, Kaliforniya, Afrika meşələrinin, həmçinin Avstraliya, Türkiyə, Yunanıstan və sair ölkə meşələrinin çox böyük sahələrdə yanması planetimizin ekologiyasına sarsıdıcı zərbə vurub.**

Əldə olunan bir çox faktlar bu yanğınların qəsdən törədildiyini dəqiq şəkildə sübut edir. Bəzi yerlərdə (məsələn, Türkiyədə) xətt üzrə yanğının baş verməsi o əraziyə kosmosdan peyklərlə lazer şüası verilməsi haqda ciddi iddialara səbəb olub. Həmçinin, Sibir və Amazon meşələrində yandırıcı kapsulların tapılması, bu kapsulların ölkə üzərindən keçən təyyarələrdən səpilməsi haqda ciddi iddialar doğurub. Bir sıra hallarda meşələri qəsdən yandıran adamların ya görüntüləri aşkar olunub, ya da bu adamlar ələ keçib.

Əlbəttə, təbii səbəblərdən yanğınlar da olur, lakin bunlar ümumi yanğınların çox az bir hissəsini təşkil edir. Ehtiyatsızlıqdan yaranan yanğınlar və təbii səbəblərdən baş verən yanğınlar ümumi halların maksimum 20 faiz ola bilər. Dünya mediasında artıq bu qlobal prosesi hansı qüvvənin təşkil etdiyi haqda geniş müzakirələr gedir.

Azərbaycanda da son illərdə meşə yanğınlarının sayı artıb. Meşələrimizdə başlayan yanğınlar nəticəsində böyük ölçüdə ağaclar və otluq sahəsi yanaraq məhv olub. Həmçinin meşədə yaşayan heyvanlar yanıb. Əlbəttə, bunların bəzilərinin qəsdən törədildiyi aşkar faktdır- məsələn, Qarabağ bölgəsində ermənilərin yandırdığı meşələri misal göstərmək olar. Lakin digər bölgələrdə də baş verən çoxsaylı yanğınlar bir çox hallarda şübhələrə səbəb olur. Bunların hamısını istilərlə, quraqlıqla əlaqələndirmək mümkün deyil. Bundan da isti və quraq illər olub, amma belə çoxsaylı yanğınlar baş verməyib. Belə çıxır ki, dünyada olduğu kimi, bizdə də bu yanğınların çoxu hansısa qüvvə tərəfindən qəsdən törədilir. Lakin bunu araşdırıb sübut etmək çox çətindir.

Təbiətdə hər zaman yanğınlar olur. Bəzən Günəşdən gələn şüalar nəticəsində quru meşələrdə yanğınların baş verdiyi müşahidə edilir. Bəzi ağaclarda müəyyən tezalışan mayelər var ki, günəş şüalarından təsirlənərək yanğına səbəb ola bilir. Lakin Azərbaycan meşələrində həmin mayelərin olduğu ağaclar demək olar ki, yoxdur. Onlar əsasən ekvatroial və tropik ölkələrdə olur.

Hadisələrin ardıcıl şəkildə baş verməsi də göstərir ki, Azərbaycanda da yanğınlar qəsdən törədilir. Bunu insanların üzərinə atmaq lazım deyil. Meşənin torpaq hissəsində kiçik ocaq qalamaqla meşə yana bilməz. İnsanlar ocağı söndürməsələr belə, o öz-özünə sönəcək. Heç kim meşəni yandırmaq istəmir, hamı ocağı tam söndürür.

Artıq dünya ictimaiyyətində belə fikir formalaşıb ki, dünya meşələrini qlobal qüvvələr yandırırlar. Bir çox ölkələrdə meşələri yandırırlar, sonra yerində palma plantasiyaları yaradırlar. Qlobal palma yağı istehsalının astronomik artımına baxanda aydın olur. Bundan başqa, ağaclar 5G və elektromaqnit dalğaların udulmasına səbəb olduğu üçün özünü Vahid Dünya Hökuməti adlandıran qlobalistlərə sərf etmir. Onlar dünyanın hər yerinə bu dalğaları ötürə bilmirlər.

Bir neçə ay əvvəl dünyanın onlarla ən böyük qida anbarlarını da onlar yandırdı. Süni şəkildə qıtlıq yaradırlar. Hazırda dünya ərzaq istehsalı tələbatı artıqlaması ilə ödəyəcək həddədir, amma süni qıtlıq və bahalıq yaradıb böhran təşkil edirlər. Bütün bunlar böyük planın tərkib hissəsidir.

Bu yanğınların qarşısının tam alınması mümkün deyil. Lakin biz heç olmasa bir çoxunun qaşrısını ala bilərik. Bunun üçün meşə zolaqlarında, girişlərdə nəzarətçilərin sayını artırmaq lazımdır. Kameraların sayı çoxaldılmalıdır.

Onsuz da Azərbaycanın meşə fondu 10 faizdir, yəni azdır. Səhra ölkələri istisna olmaqla, biz dünyada ən az meşə fonduna sahib ölkələrdən biriyik. Bir çox ölkələrdə süni meşələr salınır. Bizdə də bu işə başlamaq lazımdır. Xüsusən aran zonalarında.

Meşələrdə heyvanların otarılması da meşə fondunu məhv edir. Belə ki, heyvanlar yeni pöhrələri yeyirlər və meşə fondu təzələnmir, köhnə ağaclar qocalıb quruyanda, yerinə yeniləri qalxmır.

Cənab Prezidentimiz hökumətin müşavirələrinin birində dedi ki, qlobal quraqlıq nəticəsində 2030-cu ilədək Azərbaycanda səhralaşmanın artacağı gözlənilir və bunun qarşısını almaq üçün bütün tədbirlər görülməlidir. Bu işləri sürətləndirmək lazımdır.

# “Ermənistan Brüssel və Moskvaya zəifləmiş vəziyyətdə gedir”



“Ermənistanın Baş naziri Nikol Paşinyan Müstəqillik Bəyannaməsinin qəbul edilməsinin 32-ci ildönümü münasibətilə xalqa müraciətində təkcə erməniləri təbrik etmədi, eyni zamanda, vəziyyətin nə qədər ağır olduğunu onların nəzərinə çatdırmağa çalışdı”. Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Partiya sədrinin sözlərinə görə, bu səbəbdən müraciətdə müstəqillik haqqında deyilən fikirlər cəmiyyətdə heç bir əks-səda doğurmadı: ”Əsas diqqət Azərbaycan və Rusiya ilə əlaqədar deyilənlərə yönəldi. Hətta bayram müraciətində də Azərbaycandan növbəti dəfə şikayət etmək imkanını əldən buraxmayan erməni lideri bizi münasibətləri normallaşdırmaq üçün yüksək bədəl tələb etməkdə günahlandırdı. Bu şikayət erməni cəmiyyətini nə qədər narahat etsə də, əsas müzakirə mövzusu təbrik mətnində yer alan və Rusiyaya ünvanlanan bir cümlə oldu. Həm adi insanlar, həm də siyasətlə əlaqəsi olanlar məhz bu cümləni müzakirə edir: ”Müstəqillik bizim üçün möhkəm müttəfiqlik münasibətləridir, ancaq müttəfiqlər təkcə sizin deyil, həm də sizə qarşı olanın müttəfiqləridir”. Bununla Ermənistanın baş naziri bir daha xatırlatmağı vacib saydı ki, ötən əsrin 90-cı illərində qazanılan qələbələr müttəfiq Rusiyanın ciddi yardımı ilə əldə olunmuşdu və artıq o böyük gücdən istifadə etmək imkanı yoxdur. Azərbaycan rəhbərliyi son dərəcə ağıllı siyasət aparmaqla erməniləri əsas müttəfiqlərindən məhrum etmişdir. Bu gün Rusiya həm də bəlkə də daha çox Azərbaycanın müttəfiqidir və bir çox məsələlərdə onun yanında yer alır. Son aylar Qarabağda və ətrafında ermənilərin məruz qaldığı uğursuzluqların, Ermənistanda ciddi ruh düşkünlüyü yaradan güzəştlərin kökündə də ilk növbədə bu amil dayanır. Erməni ekspertləri Nikol Paşinyanın hətta təbrik müraciətində də xalqı növbəti güzəştlərə hazırlamağa cəhd göstərməkdə ittiham edirlər. Onun istefasını tələb edənlər bu məqamdan da yararlanmağa çalışırlar. Bayram təbrikində belə xalqı güzəştlərə, növbəti məğlubiyyətə hazırlayan şəxsin hakimiyyətdə qalmaq haqqı yoxdur-deyirlər. Eyni zamanda, Ermənistanda Rusiya əleyhinə çıxışlar geniş vüsət almaqdadır. Bəzi siyasi partiyalar KTMT kimi əhəmiyyətsiz qurumdan çıxmağı, Rusiya bazalarını bağlamağı, rus hərbçilərini çıxarmağı və daha cəsarətlə qərbə yaxınlaşmağı tələb edirlər. Bu addımın son dərəcə təhlükəli olduğunu iddia edən digər partiyalar Ermənistanın Rusiyasız yaşaya bilməyəcəyini, antirus təbliğatının ermənilərə baha başa gələcəyini, qorxaqlığı dəfələrlə sübut olunmuş qərbə güvənməyin yanlış olduğunu bəyan edirlər. Azərbaycanın Avropa üçün birinci dərəcəli əhəmiyyət daşıyan məsələdə-enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı mühüm rola diqqət çəkərək xam xəyallara uymamağa çağırırlar. ”Daşnaksütyun” partiyası hakimiyyətin öz qorxaqlığını etiraf etmək əvəzinə bütün günahları Rusiyanın üzərinə atmağa çalışdığını iddia edərək Laçında baş verən son hadisələrin bunun bariz nümunəsi olduğunu bəyan edir. Yaxın günlərdə Brüsseldə və Moskvada keçiriləcək mühüm görüşlərə Ermənistan hakimiyyəti bu cür ziddiyyətlər içərisində, son dərəcə zəifləmiş vəziyyətdə gedir. Azərbaycan addım-addım həm sahədə, həm də danışıqlar stolu arxasında mövqelərini möhkəmləndirir və bu prosesin daha böyük qələbələrə gətirib çıxaracağı şübhə doğurmur”.

***Gülyana***

# “Bakının Qarabağda taxıl yetişdirmək səyləri çox perspektivlidir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb*

## Professor Tkaçenko: "Dünyada ərzaq tələbatını ödəmək üçün kifayət qədər qida məhsulları istehsal olunur, yaranmış vəziyyətdə israfçılığın böyük rolu var"



Qlobal ərzaq böhranı təhlükəsi bəşəriyyətin üzərində Damokl qılıncı kimi asmaqda davam edir. Analitiklərin fikrincə, qlobal qiymət artımını şərtləndirən amil olan Ukrayna taxılının ixracı ilə bağlı problemlərin həllinə baxmayaraq, vəziyyət çox dəyişməyib - müxtəlif ölkələrdə ərzaq hələ də bahalaşır və bununla bağlı proqnozlar ən məyusedicilərdir. Azərbaycan da bu problemdən yan keçməyib- unun qiyməti qalxır, baxmayaraq ki, hökumət vəziyyəti sabitləşdirmək üçün xeyli işlər görür, o cümlədən dənli bitkilərin əkin sahələrini genişləndirir, bazarda bəzi məhsul qrupları üzrə qiymətlərin tənzimlənməsinə özəl sektoru cəlb edir.

Qlobal ərzaq böhranı nədən qaynaqlanır, hansı kulminasiya nöqtəsinə çata bilər və bu təhlükə Azərbaycan üçün nə dərəcədə ciddidir? Bu sualları ”Caliber” analitik mərkəzinə müsahibəsində rusiyalı politoloq, iqtisad elmləri doktoru, Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenko cavablandırıb.

***- Ukrayna limanlarından taxıl ixracı ilə bağlı gərginliyin və Rusiya buğdasının ixracının məhdudlaşdırılmasının qismən aradan qaldırılmasına baxmayaraq, bəşəriyyət üçün aclıq təhlükəsi hələ də qalmaqdadır - deyəsən, qıtlıq problemi həll olunub, lakin qiymətlər hələ də yüksəkdir. Hadisələrin belə gedişinin səbəbi nədir və bundan sonra nə gözləmək olar?***

- Dünya ticarəti üzrə ekspertlər arasında planetin bir çox dövlətlərinə təsir etmək təhlükəsi ilə üzləşən, gözlərimiz önündə artan ərzaq böhranının səbəbləri ilə bağlı kəskin müzakirələr getdi. Mübahisə iştirakçılarının əksəriyyəti razılaşır ki, böhranın vahid səbəbi yoxdur və onun inkişafı qlobal siyasi və iqtisadi sistemdə gedən mürəkkəb proseslərin əks etdirir.

Ərzaq bazarında ümumi vəziyyətin pisləşməsinə səbəb kimi iki qrup səbəb var. Birincisi, bu, dünyanın aparıcı iqtisadiyyatlarının (Amerika və Avropa) yumşaq pul siyasətidir ki, bunun nəticəsində qlobal ticarət sistemində likvidliyin həcmi sənaye/kənd təsərrüfatı istehsalı və malların bazarlara tədarükü ilə müqayisədə xeyli sürətlə artır. Avropa və Şimali Amerikada vətəndaşlara və biznesə yardım proqramlarının həyata keçirilməyə başlandığı 2020-ci ilin yazından bəri qiymət artım tempi kəskin surətdə sürətlənib. Aİ, Böyük Britaniya, ABŞ və bir sıra digər iqtisadiyyatlarda cari inflyasiya dərəcələri son 40 ildə rekord səviyyədədir. Bu vəziyyət isə ayrı-ayrı əmtəə bazarlarında qeyri-sabitliyə gətirib çıxarır, çünki dünya birja ticarətində məhz əmtəələr üstünlük təşkil edir, onların ətrafında inflyasiya gözləntiləri formalaşır, gözlənilməz hallar zamanı strateji ehtiyatların yaradılması tələbləri elan edilir.

İkincisi, bu, koronavirus dövründə qlobal nəqliyyat və logistika zəncirlərinin sabitliyinin pozulmasıdır. Son iki ildə qlobal sənayenin pandemiyanın yaratdığı vəziyyətə cavab verməyə vaxtı olmadı. Beləliklə, iqtisadi tənəzzül gözləntiləri ilkin olaraq demək olar ki, bütün malların qiymətlərini kəskin şəkildə aşağı saldı. Azərbaycan 2020-ci ilin martında neftin bir barelinin 20 dollardan bir qədər yuxarıyadək ucuzlaşdığını çox yaxşı xatırlayır. Digər malların, o cümlədən ərzaq məhsullarının qiymətlərində də analoji eniş müşahidə olundu. Bu vəziyyətdə malların daşınmasına tələbat kəskin şəkildə azalmağa başladı. Və cəmi 3 aydan sonra xammal qiymətləri artmağa başlayanda, nəqliyyat şirkətlərinin vaxtında cavab verməyə vaxtları olmadı, nəticədə tədarük zəncirlərində qan laxtaları görünməyə və böyüməyə başladı. Belə ki, əmtəə qiymətlərindəki dalğalanmalar və nəqliyyat şirkətlərinin bazarda öz davranışlarını vaxtında dəyişə bilməməsi dünya iqtisadiyyatında sabitliyi pozaraq, mövcud qarışıqlığın əsasını qoydu.

Sonda əhəmiyyəti artan daha bir amili qeyd etmək istərdim - inflyasiya gözləntiləri. Bütün bazar oyunçularının qiymətlərin yalnız artacağına əmin olduğu bir şəraitdə qiymətlərin sabitləşməsi uzaq və çətin bir məqsədə çevrilir. İndi dünyanın ərzaq bazarında məhz bu proseslər gedir.

***- Bu və ya digər şəkildə biz görürük ki, son illər qlobal ərzaq böhranı təhlükəsi artmaqdadır, vaxtaşırı ərzaq təminatı sistemində, maddi-texniki təchizatda və ya sadəcə olaraq, ərzaq ehtiyatlarının istehsalında (taxıl və s.) yeni boşluqlar aşkar edilir. Bu problem bütövlükdə, sistemli şəkildə həll edilə bilər, yoxsa ərzaq qıtlığı və onun bahalaşması təhlükəsinin bəşəriyyətin xroniki xəstəliyinə çevrilməsi və illər keçdikcə daha da pisləşməsi şansı var?***

- Qlobal iqtisadiyyatın mütəxəssisləri yaxşı bilirlər ki, planetin qida məhsulları həm ümumi həcm baxımından, həm də ayrı-ayrı növləri üzrə - yağlar, karbohidratlar, zülallar və s. baxımından kifayət qədər həcmdə istehsal olunur. İstənilən an bazarda və ehtiyatda aclıq təhlükəsini tamamilə zərərsizləşdirmək üçün kifayət qədər ərzaq var.

Ərzaq böhranı təhlükəsi daha çox ayrı-ayrı dövlətlərin kənd təsərrüfatı məhsulları ticarətində bir-biri ilə əməkdaşlıq etmək istəməməsindən, eləcə də alimlərin ”informasiya asimmetriyası” adlandırdıqlarından irəli gəlir. Bu, bazar iştirakçılarının (hökumətlər və beynəlxalq təşkilatlar da daxil olmaqla) müəyyən ölkədə və ya regionda ərzaq çatışmazlığı barədə vaxtında məlumat almaması, eləcə də qlobal iqtisadiyyatda qida dövriyyəsinə xidmət edən nəqliyyat şəbəkələrində nasazlıqlar barədə məlumat almadıqda baş verir. Bəzi illərdə Avropa İttifaqında ərzağın 40 faizə qədəri cəlbedici görünüşünü itirdiyinə görə (xüsusilə tərəvəz və meyvələr) və ya milli bazarların tələbatını xeyli üstələyən həcmdə istehsal olunan məhsulların yararlılıq müddəti bitdiyinə görə məhv edilir.

Buna görə də, ərzaq probleminin həlli yalnız istehsal həcmini artırmaq, məhsuldarlığı artırmaq və ya kənd təsərrüfatı xammalının saxlanması / emalı keyfiyyətini yaxşılaşdırmaq üçün adi səylərdən ibarət deyil. Ərzaq və kənd təsərrüfatı xammalının ticarətin-



də fasilələrin qarşısının alınması, ayrı-ayrı bazar seqmentlərinin diqqətlə izlənilməsi, qiymət artımı və mal qıtlığı təhlükələrinin ilkin mərhələdə müəyyən edilməsi istiqamətində görülən işlər də eyni dərəcədə vacibdir. Beləliklə, Aİ və ABŞ-ın Rusiyanın mineral gübrə sənayesinə qarşı elan etdiyi sanksiyalar 2022-ci ilin yazında taxıl məhsullarının qiymətlərini yüksəldən mühüm amil oldu. Kalium və digər mineral gübrələrə tətbiq edilən bu sanksiyalar çox gec götürüldükdə, an əldən getdi, ərzaq məhsullarının bahalaşmasının qarşısı alınmaz oldu. Odur ki, ərzaq böhranı təhlükəsinin aradan qaldırılmasında maraqlı olan bütün dünya ictimaiyyətini birləşdirə biləcək mühüm məqsəd son altı ayda dünya ticarət sistemində yaradılmış müxtəlif sanksiyalara və maneələrə qarşı mübarizə olmalıdır.

***- Azərbaycan ərzaq böhranı risklərinin azaldılması üçün operativ şəkildə səylər göstərir. Bunun üçün, məsələn, Azərbaycanın müxtəlif bölgələrində, xüsusən də Qarabağda buğda səpilməsi üçün xüsusi texnologiyanın tətbiqi ilə bağlı İsraillə müqavilə bağlanıb. Sizcə, Azərbaycan qlobal ərzaq böhranının təsirlərindən nə dərəcədə qorunur və burada başqa hansı mexanizmlər işlənməlidir?***

- Azərbaycan hökumətinin buğda və digər dənli bitkilərin istehsalının artırılması istiqamətində indiki səyləri vaxtındadır və alqışlanmalıdır. Bu tədbirlər vasitəsilə ölkəniz daxili bazarın ehtiyaclarını tez bir zamanda ödəmək üçün potensial yaradır ki, bu da böhran və ya ümumi bazar qeyri-sabitliyi zamanı xüsusilə vacibdir. Əhali üçün hakimiyyət orqanlarının işinin səmərəliliyinin göstəricisi bütün ənənəvi ərzaq məhsullarının münasib qiymətə olması olmasından ibarətdir. Yerli istehsalın artması əmtəə intervensiyalarının aparılması imkanlarını artırır və sosial cəhətdən həssas qida növlərinin, ilk növbədə çörək və çörək məhsulları üçün qiymətlərin aşağı salınmasına şərait yaradır.

Qarabağda taxıl istehsalına gəlincə, bu, çox perspektivli uzunmüddətli məqsəddir və bu, çox əziyyət çəkən bu regionda normal həyatın bərpası üçün ümumi səylərin tərkib hissəsi kimi həll edilməlidir. Qarabağda kifayət qədər su ehtiyatı olduğundan və bitkiçilik üçün əlverişli torpaq sahələri çox olduğundan dənli bitkilərin prioritet becərilməsinin vurğulanması tamamilə özünü doğruldur.

***Müsahibə - Vadim Mansurov***
***Tərcümə - Elçin Bayramlı***



# “Barselona” - “Mançester Siti” oyununda 6 qol vuruldu

Avqustun 24-də ”Nou-Kamp” stadionunda ”Barselona” ilə ”Mançester Siti” arasında xeyriyə matçı keçirilib.

Qol.az xəbər verir ki, oyun 3:3 hesabı ilə yekunlaşıb. ”Barselona”dan Pyer-Emerik Obameyanq, Frenki de Yonq və Memfis Depay, ”Siti”dən isə Xulian Alvares, Koul Palmer və Riyad Marez fərqlənib. Matçdan yığılan vəsait yaddaş problemi olan insanların müalicəsinə xərclənəcək.

# Bakıda kirayə ev qiymətləri niyə bahalaşıb?

## Mənzil eksperti açıqladı





“Hal-hazırda Bakı və ətraf qəsəbələrdə olan kirayə mənzillərdə keçmiş illərlə müqayisədə kirayə mənzil bazarında qiymətlərdə 20-25 faiz artım qeydə alınıb. Bu artımın əsas səbəbi yeni tədris ilinin açılması olsa da, əsas səbəb başqadır. Belə ki, şəhərin mərkəzində tikilməkdə olan Pilot layihəli evlərin də kirayə mənzil bazarında qiymət artımında böyük payı var”. Bu sözləri SİA-ya açıqlamasında mənzil üzrə ekspert Anar Nəsirov deyib. Onun sözlərinə görə, bir tərəfdən söküntü zamanı həmin sökülən yerlərdə kirayə bazarına çıxarılan evlər sökülür, digər tərəfdən həmin həyətlərdə yaşayan sakinlərin evlərinin sökülməsi və həmin mənzillərin sakinlərinin kirayə mənzillərə köçürülməsi kirayə bazarına əsas təsir edən amillərdən biridir: ”Hazırda tikintisi davam edən pilot layihələrinin tikintisinin bitməməsi və həmin sakinlərin öz evlərinə köçürülməməsi təkrar kirayə bazarına təsirsiz olmur.

Hazırda söküntü zamanı ikinci əl kirayə bazarında olan mənzillərin 30 faizi sökülüb və təkrar kirayə bazarından xaric olur. Bu da mənzil bazarında balansı pozur, tələbat artır və qiymətlərin bahalaşmasına səbəb olur. İndi daha çox müştəri görən sahibkar qiyməti artırır, yaxud evi əldə etmək üçün kirayə axtaran əmlak sahibinə daha artıq pul təklif etməklə o evi əldə etmək istəyir. Bu da kirayə mənzil bazarında qiymətlərin artımına səbəb olur”.

Anar Nəsirov sözlərinə belə davam edib: ”Ümumiyyətlə, bu il kirayə bazarı çox gərgin görünür. Çünki keçmiş illərə nisbətən kirayə bazarına daha az mənzil çıxır. Onlar da 1 saat ərzində tutulur.

2022- ci il dərs ilinin başlanması onsuz da az olan kirayə mənzillərə tələbatı daha da artırıb. İndi tələbələr keçən dərs illərindəki kimi seçim etmək şansları yoxdur. Çünki ailələr 4-5 mənzilə baxıb birini seçirdilərsə, indi bir evi tapmaq üçün günlərlə axtarışda olurlar və yeni ev çıxan kimi onu tutmaq məcburiyyətindədirlər.

Bir sözlə, bu il kirayə mənzil bazarına keçən 3 illə müqayisədə tələbat 40 faiz daha artıqdır. Yuxarıda qeyd etdiyim amillərdən dolayı kirayə mənzil bazarında qiymət artımı var və bu artım yeni dərs ilinin başlanmasına qədər davam edəcək.

Kirayə mənzil bazarında normallaşma isə yeni tikilməkdə olan Pilot binaların tam təhvil verilməsi və hazırda kirayədə olan sakinlərin öz mənzillərinə köçürülməsi təkrar kirayə bazarına yeni evlərin çıxmasına səbəb olacaq. Bu da kirayə mənzil bazarında tələb və təklif balansının düzəlməsinə səbəb olacaq .Hazırda tələbələrin 50 faizi hələ də ev tutmayıblar bu keçən günlər ərzində kirayə mənzillərə tələbatı daha da artracaq və düşünürəm qiymətlər daha artmağa doğru gedəcək”.

***A. Vəli***

# İbrahim Tatlısəs qəzaya düşdü: MAŞIN QAYADAN AŞDI!

Türkiyəli müğənni İbrahim Tatlısəs qəzaya düşüb. SİA xəbər verir ki, sənətçinin olduğu maşın qayadan yuvarlanıb. Buna qarşıdan gələn yük avtomobilinin maşına çırpılması səbəb olub.

Tatlısəsi xilas etmək üçün bölgəyə xeyli sayda xilasetmə qüvvələri cəlb olunub. Qeyd edək ki, sənətçinin yanında 9 yaşlı qızı Elif Adanın da olduğu bildirilir.

***Ayşən***



# Hidrogenlə işləyən ilk qatar

**Almaniya gələcəkdə ətraf mühitə yararlı olan nəqliyyat variantları üçün layihələr hazırlayan ölkələrdən biridir. SiA xəbər verir ki, Hidrogenlə işləyən sərnişin qatarı parkı dünyada ilk dəfə olaraq Bremervördedə səfərə çıxacaq.**



Qatarlardan beşi bu gün ilk səfərlərinə başlayır. Bu ilin sonuna kimi 14 qatarın hamısının istismara verilməsi gözlənilir. Belə ki, hidrogen qatarlarının regionda fəaliyyət göstərən 15 dizel mühərrikli qatarın tədricən əvəzlənməsi planlaşdırılır. Yalnız 1 kiloqram hidrogen yanacağı təxminən 4,5 kiloqram dizellə eyni performansı verir. Emissiyasız və səssiz qatarlardan tüstü və qaz əvəzinə yalnız buxar və qatılaşdırılmış su çıxır.

Saatda maksimum 140 kilometr qət edə bilən qatarların uçuş məsafəsi təxminən 1000 kilometrdir. Bu, o deməkdir ki, o, bütün gün ərzində getdiyi şəbəkədə yalnız bir hidrogen çənini istehlak edir. Qatarların təxminən 80-120 kilometr məsafə qət etməsi gözlənilir.

***Qönçə Quliyeva***

## Başsağlığı

Səs Media Qrupu adından Bəhruz Quliyev Həsən Daşdəmirova anası

**Sara xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**